

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Volodimir Zelenski Ukraynaya dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib



2

SƏS

№ 126 (6809)

20 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

# Məğlub tərəf qalibin şərtlərini qəbul etmək məcburiyyətindədir



5

*PREZİDENT İLHAM ƏLİYEV: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır"*

# Nə qədər ki, revanşistlər var...

## Azərbaycan əsgərinin əli tətikdə olacaq!



11

*Ermənistanda yalnız hakimiyyət dairələrində deyil, eləcə də hakimiyyətə qarşı müxalif olanlar arasında mövcud məğlubiyyət vəziyyəti ilə barışmayanların fəaliyyətləri kimsəyə sirr deyil. Eyni zamanda, erməni hərbi-siyasi isteblişmentinin demək olar ki, 99,9 faizi əllərində imkan olarsa, dərhal Azərbaycana qarşı ərazi iddiaları çərçivəsində növbəti müharibə aparmaq maraqlarının da mövcudluğu qalmağa davam edir.*

## Ağalıya köç Böyük Qayıdışın ilk qədəmləridir



5

## "Cəbhəçilər"lə REAL-çılar qarşı-qarşıya



7

## Cizgisindən çıxan cizgi filmləri



12

## "Ağıllı kənd" konsepsiyası nə üçündür?




15

## "Qarabağ" darmadağınla qalib gəldi!

*Dünən "Qarabağ" futbol klubu UEFA Çempionlar Liqasının 1-ci təsnifat mərhələsində Cəbəllütariq "Linkoln"u ilə cavab oyununa çıxıb.*



4

# “İkitərəfli münasibətlərimiz ildən-ilə daha da inkişaf edir”

*Prezident İlham Əliyev Özbəkistanın Baş nazirini qəbul edib*



***Prezident İlham Əliyev dünən Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul edib. Dövlətimizin başçısı bu yaxınlarda Özbəkistan Prezidenti ilə telefon danışığını xatırlayaraq söhbət zamanı Şavkat Mirziyoyevi seçkilərdə inamlı qələbə münasibətilə təbrik etdiyini və əlaqələrimizin bütün istiqamətlərdə müsbət inkişaf dinamikasına malik olmasından məmnunluq ifadə edildiyini bildirdi.***

Dövlətimizin başçısı əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından Özbəkistanın Baş naziri Abdulla Aripovun ölkəmizə səfərinin əhəmiyyətini qeyd etdi.

İkitərəfli münasibətlərin ildən-ilə daha da inkişaf etdiyini vurğulayan Azərbaycan Prezidenti gələcəkdə də əməkdaşlığın genişləndirilməsi ilə bağlı yeni uğurlu layihələrin icra olunacağına əminliyini bildirdi.

Abdulla Aripov, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını Prezident İlham Əliyevə çatdırdı və vurğuladı ki, Özbəkistan Prezidenti həmişə dostu və qardaşı Prezident İlham Əliyevlə təmaslardan böyük məmnunluq duyduğunu bildirir. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Abdulla Aripov Özbəkistanda keçirilmiş seçkilərdən sonra Şavkat Mirziyoyevi təbrik edən ilk dövlət başçısının məhz Prezident İlham Əliyev olduğunu qeyd edərək vurğuladı ki, bu da dövlət başçıları və ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsidir.

Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın çox böyük uğurlar əldə etdiyini deyən Özbəkistanın Baş naziri Bakının inkişafının onlarda dərin təəssürat hissi yaratdığını dedi. Qonaq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının əhəmiyyətini vurğuladı.

Görüşdə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri və bu səfər çərçivəsində əməkdaşlığımızın hərtərəfli inkişafı ilə əlaqədar müəyyən edilmiş prioritet sahələr, bu istiqamətdə görülmüş işlərin nəticələrinin çox müsbət olduğu qeyd edildi, iqtisadi-ticarət, investisiyalar, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, sənaye sahələrində yeni layihələrin həyata keçirildiyi diqqətə çatdırıldı.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti vurğulandı, Azərbaycanda yaradılmış azad iqtisadi zonada Özbəkistan şirkətlərinin iştirakı perspektivləri, hökumətlərarası komissiyanın fəaliyyəti və iyulun 18-də Şuşada keçirilən Azərbaycan-Özbəkistan Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasının önəmi qeyd edildi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında və elmi-pedaqoji sahədə uzunmüddətli səmərəli fəaliyyətinə görə Sudeif Bəşir oğlu İmamverdiyevin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev bir qrup şəxsin “Minatəmizləmə sahəsində xidmətlərə görə” medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# İraq mediası: Bakı gələcəkdə də Bağdad və Ərbil ilə iqtisadi əməkdaşlığı inkişaf etdirəcək

***İraqın “Şafaq”, “BNN network”, “Kurdistan24” qəzet və portalları İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzaninin Azərbaycana işgüzar səfəri zamanı rəsmi Bakının Bağdad və Ərbil ilə əlaqələrin inkişafında maraqlı olduğunu yazıb. Yazılan məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin Neçirvan Bərzanini qəbul etməsi barədə ətraflı məlumat verilib.***

Materiallarda qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Neçirvan Bərzaninin səfərinin İraq və Kürdüstan Regionu ilə əməkdaşlığın dinamikasının artması işinə töhfə verəcəyini bildirib. Prezident İlham Əliyev İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində bu ilin martında Azərbaycana səfəri və ikitərəfli əlaqələrimizin inkişafına dair onunla apardığı müzakirələri, həmçinin İraq Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseynin ölkəmizə səfəri zamanı keçirdiyi görüşü və əlaqələrimizin inkişafı ilə əlaqədar müzakirələri məmnunluqla xatırladıb.

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

Məqalələrdə, həmçinin Neçirvan Bərzaninin Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ilə görüşü barədə də məlumat verilib. Yazılarda bildirilib ki, bu görüşdə iqtisadi sahədə Azərbaycan Prezidentinin tapşırıqlarından irəli gələn əməkdaşlığın genişləndirilməsi məsələləri, həmçinin iş adamları arasında daimi təmas və əlaqələrin yaradılmasına dəstək verilməsi, energetika, ticarət, nəqliyyat sahələrində əməkdaşlıq imkanlarının dərinləşdirilməsi mövzuları ətrafında fikir mübadiləsi aparılıb.






# Volodimir Zelenski Ukraynaya dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib



Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanın Ukraynaya elektrik avadanlıqlarının alınması və göndərilməsi məqsədilə 7,6 milyon dollar ayırmasına görə Prezident İlham Əliyevə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, Volodimir Zelenski tviter səhifəsində yazıb: “Ukraynanın ehtiyacları üçün enerji avadanlıqlarının alınması məqsədilə yardımın ayrılmasına dair Sərəncama görə Prezident İlham Əliyevə minnətdaram. Bu dəstək təcavüzkarın davamlı hücumları qarşısında enerji sektorunun sabitliyini təmin etmək üçün vacibdir. Enerji sistemini qışa hazırlamaq üçün tərəfdaşlarımızla fəal işləməyə davam

Volodimir Zelenski Ukraynaya dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanın Ukraynaya elektrik avadanlıqları alınması və göndərilməsi məqsədilə 7,6 milyon dollar ayırmasına görə Prezident İlham Əliyevə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, Volodimir Zelenski tviter səhifəsində yazıb: “Ukraynanın ehtiyacları üçün enerji avadanlıqlarının alınması məqsədilə yardımın ayrılmasına dair Sərəncama görə Prezident İlham Əliyevə minnətdaram. Bu dəstək təcavüzkarın davamlı hücumları qarşısında enerji sektorunun sabitliyini təmin etmək üçün vacibdir. Enerji sistemini qışa hazırlamaq üçün tərəfdaşlarımızla fəal işləməyə davam edirik”.”.

# Məğlub tərəf qalibin şərtlərini qəbul etmək məcburiyyətindədir



## PREZİDENT İLHAM ƏLİYEV: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır"

TƏHLİL

***Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Avropanın siyasi mərkəzi sayılan Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında təxminən 4 saat davam edən sülh danışıqlarının növbəti altıncı görüşündə yenə də qalibin şərtləri keçərli oldu. Çünki …***

### AZƏRBAYCAN ÖHDƏLİKLƏRİNƏ SADİQ ÖLKƏDİR

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib ki, sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır: "Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər".

Belə imkanların olduğunu hesab etdiyini vurğulayan dövlətimizin başçısı deyib: "Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük".

Dövlətimizin başçısı deyib ki, ancaq hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir. Çünki bu gün Avropa İttifaqının təhkilatçılığı ilə keçirilən üçtərəfli görüşləri dəyərləndirilərək bir daha Azərbaycanın reallıqlarını qəbul edir.

Azərbaycan Prezidenti birmənalı olaraq bir daha bildirdi ki, «son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük». Dövlətimizin başçısı deyib ki, ancaq hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.

Bəli, Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır.

Göründüyü kimi...

### ALTINCI GÖRÜŞ YENƏ DƏ QALİB KOMANDAN KİMİ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DİPLOMATİK ÜSTÜNLÜYÜ İLƏ YADDA QALDI

Belə ki, iyulun 15-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən növbəti – altıncı görüş əvvəlki görüşlərində olduğu kimi, yenə də Brüsseldə "Qarabağ", "Minsk qrupu", "status" ifadələrinin işlədilməməsi sülh gündəliyində rəsmi Bakının maraqlarının tam şəkildə təmin olunduğunu bir daha təsdiqlədi.

Daha doğurusu, Brüsseldəki danışıqlarda erməni tərəfinin müqavimət göstərməsinə və real nəticələrin əldə olunmasının qarşısını almaq cəhdlərinə baxmayaraq, İlham Əliyev Şarl Mişelin vasitəçiliyi ilə konkret nəticə əldə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə onu da bildirdi ki, son müsbət məqamlardan biri odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var: «Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb", - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın.

Bəli, Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır.

Üçtərəfli görüşdən sonra Şarl Mişelin verdiyi bəyanata nəzər yetirdikdə aydın görünür ki, Avropa İttifaqı ilk növbədə regionda sülhün tezliklə bərqərar olmasında çox maraqlıdır. Kommunikasiyaların açılması, nəqliyyat-tranzit məsələlərinin həllini tapması Cənubi Qafqazın inkişafı ilə yanaşı, regionda sabitliyi daha da möhkəmləndirəcək. Ona görə də Avropanın siyasi mərkəzi olan Brüssel görüşləri sülh prosesinə töhfə kimi dəyərləndirilir.

Və belə olduğu halda...

### "AZƏRBAYCANLA HƏDƏ-QORXU, ULTİMATUM DİLİ İLƏ HEÇ KİM DANIŞA BİLMƏZ"

Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bildirib ki, bu gün dünyada güc amili ön plandadır və gücə hesablaşırlar, gücdən çəkinirlər: "Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz".

"Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bəli, Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır. Bunu

### ŞARL MİŞELİN BƏYANATINDAKI TEZİSLƏRİ GÖSTƏRİR Kİ, AVROPA İTTİFAQI AZƏRBAYCAN REALLIQLIRINI QƏBUL EDİR

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel üçtərəfli görüşdən sonra verdiyi bəyanatda müzakirə olunmuş məsələlər üzrə konkret fikirlərini səsləndirib. Aİ Şurasının prezidenti qeyd edib ki, bu müzakirədə Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətləri tənzimləyən sülh müqaviləsi üzrə irəliləyiş üçün prosesin gücləndirilməsi haqqında hər iki tərəflə razılaşma əldə edilib.

Onun fikrincə, budəfəki görüşdə aparılan fikir mübadilələri açıq və məhsuldar keçib. Diplomat son görüşdə əldə edilən razılaşmalar istiqamətində bəzi addımların atılmasını isə sevindirici hal kimi qiymətləndirib.

Beləliklə, altıncı Brüssel görüşündə də sülh müqaviləsinin irəliləməsi istiqamətində növbəti bir adddım da atıldı. Həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, saxlanılan və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələr aparılıb və qeyd edilib ki, Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək.

Tərəflər sərhədlərin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişləri və sabit vəziyyəti daha yaxşı təmin etməyi, nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələri bir daha nəzərdən keçiriblər.

Bəyanatda eyni zamanda Avropa İttifaqının uzunmüddətli və davamlı sülh istiqamətində öz dəstəyini bundan sonra da göstərməyə hazır olduğu vurğulanıb. Avropa İttifaqı hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə də davam edəcək.

Bir sözlə, İlham Əliyev bir daha göstərdi ki, Azərbaycan qalib ölkə kimi diktə edən tərəfdir, milli maraqlarımız üçün əhəmiyyət daşıyan bütün məsələləri qarşı tərəfə qəbul etdirir və görüşlərdə ölkəmizin böyüklüyünü, gücünü bir daha nümayiş etdirir və sülh müqaviləsinin hazırlanması da Qalib Komandanın irəli sürdüyü 5 prinsip əsasında reallaşmalıdır. Azərbaycanın daxili işi olan Qarabağ mövzusu isə artıq müzakirə edilmir.

Son görüşdə bir daha aydın oldu ki, Azərbaycanın gücünə və siyasi iradəsinə qarşı gəlmək mümkün deyil. Çünki güc də, beynəlxalq hüquq da, ədalət də Azərbaycanın lehinədir.

**RƏFİQƏ KAMALQIZI**



# Rəqabətə davamlı turizm məkanları



Zəfər günümüzü yaşadıq və bu gün tarixiləşdi. Bu gün artıq işğaldan azad olunan ərzilərimizdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. İşğaldan azad olunan ərazilərimiz kimi, 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmiş Kəlbəcər 27 illik işğal altında qalsa da yenidən öz sakinlərini qoynuna alır. Dövlət başçısının vurğuladığı kimi, ”Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə”. 1993-cü aprelin 2-də erməni quldurları tərəfindən işğal olunmuş Kəlbəcərdə 511 nəfər şəhid olmuş, 231 nəfər itkin düşmüş, 100-lərlə adam şikəst olmuşdur. 130 yaşayış məntəqəsi, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edilmişdi. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olunmuşdur. Dövlət başçısının işğaldan azad olunan ərazilərə səfəri, eləcə də Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri bu ərazilərin tezliklə abadlaşdırılmasından, yeni, müasir əraziyə çevrilməsindən soraqdır. Qeyd edək ki, Kəlbəcərin İstisu mineral ehtiyatı və ”İstisu” sanatoriyası ilə dünyada tanınıb. İstisu sanatoriyası Kəlbəcərin qərb hissəsində – silsilə dağ yamaclarındadır. İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bu sular dünyada məşhur olan Karlovı-Varı bulaqlarının (Çexiya) eynidir və bir çox digər xüsusiyyətlərinə görə dünyada yeganədir.

### DÜNYADA ANALOQU OLMAYAN İSTİSU

Xatırladaq ki, Cənab Prezidentin Kəlbəcərə səfəri zamanı ”İstisu” mineral su zavodunun təməlini qoyulmuşdur. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.

Qeyd edək ki, ”İstisu” bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərib ki, mineralların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir. Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.

Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da 27 il işğalda qalmışdı. Kəlbəcərin məşhur olan ”İstisu” sanatoriyası da işğal altında idi. İstisu kəndinin məşhur mineral suyu olan ”İstisu” bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və ”İstisu” sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir.

1970-ci ildə SSRİ hökumətinin qərarı ilə İstisu kurortu ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edilmişdir. Burada hər il 50 min nəfər müalicə olunur və istirahət edirdi. 1980-ci illərdə sanatoriyanın tərkibində sudoldurma zavodu tikilib. Burada Yuxarı İstisu, Aşagı İstisu, Qoturlu və Tutğun mineral su yataqlarından gündə 800 min litrdən artıq mineral su istehsal edilirdi. 1993-cü ildə Kəlbəcər Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildikdən sonra kurort tamamilə dağıdılıb, burada çıxan mineral müalicəvi sular isə qanunsuz olaraq başqa ad altında xarici ölkələrə satılıb. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanata əsasən 2020-ci il noyabrın ayının 25-də Kəlbəcər işğaldan azad edilib.

Əlbəttə ki, həyata keçirilən layihələr, görülən işlər bir daha deməyə imkan verir ki, işğaldan azad olunan ərazilərimiz müasir standartlara uyğun olaraq qurulacaq.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Bəzi xarici media nümayəndələrinin adı qara siyahıdan çıxarılıb




***XİN-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Medianın İnkişafı Agentliyi və Mətbuat Şurasının 22 iyul – Milli Mətbuat və Jurnalistika Günü ilə bağlı tədbiri keçirilib. SİA xəbər verir ki, Azərbaycan Respublikasının ərazilərinə qanunsuz səfər etmiş xarici vətəndaşların siyahısından bəzi şəxslərin adlarının çıxarılması barədə birgə bəyanat qəbul edilib. Bəyanatda qeyd edilib ki, bu il, Azərbaycan Respublikasında milli mətbuatın yaranmasının 148 illiyi qeyd olunur.***

Milli mətbuatımızın ilk nümunəsi kimi 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist Həsən bəy Zərdabi tərəfindən azərbaycan dilində nəşr olunmağa başlamış “Əkinçi” qəzetindən əsasını götürən müasir Azərbaycan mətbuatı ölkəmizin bütün sahələrdə əldə etdiyi nailliyyətlərə uyğun şəkildə öz inkişaf dövrünü yaşayır.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanda ölkə Konstitusiyası və “Media Qanunu” çərçivəsində ifadə və mətbuat azadlığı, jurnalistlərin informasiya toplamaq hüququ təmin olunur, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir. Azərbaycanda informasiya məkanında plüralizm prinsipi əsas götürülərək, yerli və xarici media subyektlərinin təmsilçilərinin fəaliyyətinə hər cür şərait yaradılır.

Jurnalistlərin tərəfsizlik və obyektivlik prinsipləri əsas götürülməklə fəaliyyətlərinin dəstəklənməsi ölkəmizin əsas prioritetlərindəndir. Medianın bu missiyanı qanunvericiliyə zidd olmayan üsullarla həyata keçirməsi olduqca vacib amillərdəndir.

Əlavə edilib ki, milli jurnalistikanın ölkəmizin xarici siyasət maraqlarına aid olan məsələlər, xüsusilə Azərbaycan-Ermənistan sülh prosesi kimi istiqamətlərdə ölkəmizin həqiqətlərinin beynəlxalq auditoriyaya çatdırılmasında, region və onun hüdudlarından kənarda informasiya məkanının formaşdırılmasında, xarici mənfi ideoloji təsirlərin fonunda milli informasiya təhlükəsizliyinin təmin olunmasında danılmaz rolu vardır.

Bu məqsədlə, xarici jurnalistlərin Azərbaycana səfərlərinin təşkili əsas fəaliyyət sahələrindəndir. Həm Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin işğalı dövründə, həm də Vətən müharibəsindən sonra regiona yüzlərlə jurnalist səfər ediblər. Bununla yanaşı, bir sıra əcnəbi jurnalistlərin Azərbaycan hökumətinin icazəsi olmadan keçmiş işğal altında olan ərazilərimizə səfərlər həyata keçirdiyi, bir çox hallarda, belə səfərlərin həmin şəxslərin məlumatsızlığı nəticəsində baş verdiyi bəllidir.

Məlum olduğu kimi, beynəlxalq təcrübəyə uyğun olaraq, Azərbaycanın milli və beynəlxalq qanunvericiliyinin kobud şəkildə pozulması ilə nəticələnən hər hansı bir səfərdə iştirak edən şəxs Azərbaycanda arzuolunmaz şəxs kimi müvafiq olaraq Azərbaycan Respublikasının ərazilərinə qanunsuz səfər etmiş xarici vətəndaşların siyahısına daxil edilir. Bununla yanaşı, hər il onlarla şəxs bu siyahıdan adlarının çıxarılması məqsədilə Azərbaycan hökumətinə rəsmi üzrxahlıq məktubları ünvanlayır və müraciətlər məqsədəuyğun hesab ediləcəyi təqdirdə, onların adları siyahıdan çıxarılır.

Bu il, məhz “Heydər Əliyev” ili çərçivəsində və Azərbaycan Respublikasında milli mətbuatın yaranmasının 148 illiyində Azərbaycan tərəfi keçmiş işğal olunmuş ərazilərə qanunsuz səfər etmiş 58 nəfər xarici media nümayəndələrinin adlarının bu siyahıdan çıxarılmasına dair qərar qəbul edib. Beləliklə, adları dərc olunan şəxslərin Azərbaycan Respublikası ərazisinə daxil olmasına qoyulan qadağa aradan qaldırılıb. Milli Mətbuat və Jurnalistika Günü ilə əlaqədar bu sahədə çalışan bütün media nümayəndələrini səmimi qəlbdən təbrik edir və bu şərəfli işlərində onlara yeni-yeni uğurlar arzulayırıq!

Azərbaycan Respublikasının ərazilərinə qanunsuz səfər etmiş xarici vətəndaşların siyahısından adları çıxarılmış bəzi media nümayəndələri haqqında məlumatı buradan əldə etmək mümkündür.

# “Qarabağ” darmadağınla qalib gəldi!

***Dünən "Qarabağ" futbol klubu UEFA Çempionlar Liqasının 1-ci təsnifat mərhələsində Cəbəllütariq "Linkoln"u ilə cavab oyununa çıxıb. Bakı Olimpiya Stadionunda keçirilən matç Ağdam təmsilçisinin 4:0 hesablı qələbəsi ilə başa çatıb. Azərbaycan təmsilçisinin qollarını Abdullah Zubir, 7 (1:0), Bəhlul Mustafazadə, 45+1 (2:0), Redon Cica, 49 (3:0), Marko Yankoviç, 62 (4:0) vurublar. Bununla da "Qarabağ" "Linkoln"u ümumilikdə 6:1 hesabı ilə üstələyərək 2-ci təsnifat mərhələsinə adlayıb.***



”Qarabağ” 2-ci təsnifat mərhələsində Polşa ”Rakuv”u ilə qarşılaşacaq. Qeyd edək ki, ÇL-də 2-ci təsnifat mərhələsinin oyunları 25-26 iyul və 1-2 avqust tarixlərində keçiriləcək.

# Ağalıya köç Böyük Qayıdışın ilk qədəmləridir







## PREZİDENT İLHAM ƏLİYEV: "İstəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər qayıtsınlar dədə-baba torpaqlarına və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək"

***Bəli, bu gün Azərbaycan xalqı olaraq tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayırıq. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüzminlərlə soydaşımız məcburi köçkünlük yükündən aza dolu. Artıq tarixi səlnamələrimizə qızıl hərriflərlə həkk olunacaq daha bir möhtəşəm məqamı, dədə-baba yurdlarımıza Böyük Qayıdışı yaşayırıq. 44 günlük Vətən müharibəmizin zəfərindən iki il yarım ötməmiş, Qarabağın, Şərqi Zəngəzurun əzəli sakinləri yurdlarında yaşamağa dönürlər.***

Zəfərdən sonra bu xoşbəxtliyi ilk yaşayanlar Zəngilanın Ağalı kəndinin sakinləri oldu. Artıq düz bir il öncə «ağıllı kənd» konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsinin bir ili tamam olur.

Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.

Belə ki, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva ötən il mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər zamanı dövlət başçısı Qarabağımıza «Böyük Qayıdış»ın rəmzi olan, Zəngilanın Ağalı kəndinin "Ağıllı kənd" layihəsi ilə yenidən qurulmasının başa çatması ilə əlaqədər Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə demişdir ki, Müstəqillik Günü ərəfəsində burada olmalı idimi: "Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq".

"Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır", - deyə dövlətimizin başçısı vurğulayıb.

"Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir»,- deyən Azərbaycan Prezidenti bildirib ki, bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil: «Bunu yaxın tarix göstərir. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır".



### "AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI ÖZ DAXİLİ MALİYYƏ MƏNBƏLƏRİ HESABINA REALLAŞDIRIR"

Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. 2023-cü il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat nəzərdə tutulub. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.

O da məlumdur ki, işğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var. Bu potensialın reallaşdırılması üçün işğaldan azad olunmuş ərazilərdə yeni müəssisələr tikilməli, sahibkarlıq fəaliyyətləri qurulmalıdır. Bu fəaliyyətlərin uğurla qurulması üçün investorları stimullaşdıracaq uzunmüddətli vergi və gömrük güzəştləri tətbiq olunacaq. Proqramın icrası müddətində işğaldan azad olunmuş torpaqlarda yaradılacaq yeni istehsal sahələri bu ərazilərə qayıdacaq insanların işlə təmini məsələlərini də qabaqcadan həll etməyə kömək edəcək.

Həmçinin, Dövlət Proqramının əsas hədəfləri həm infrastrukturun formalaşdırılması, yenidən qurulması, həm iqtisadiyyatın formalaşması və reinteqrasiyası, sosial inkişaf, həm də ətraf mühitdə tarazlığın qorunması, "yaşıl iqtisadiyyat"ın formalaşdırılmasından ibarətdir. Qeyd edək ki, işğal müddətində Qarabağ və Şərqi Zəngəzurda infrastruktur tamamilə dağıdılıb. Onların yenidən qurulmasına ehtiyac var və bu istiqamətdə də intensiv şəkildə işlər gedir. Həmçinin, Proqramda "yaşıl iqtisadiyyat", "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarına uyğun olaraq yaşayış məntəqələrinin salınması, alternativ enerji mənbələrindən daha çox istifadə edilməsi nəzərdə tutulub. Buraya ətraf mühitin qorunmasına və işğal müddətində Ermənistanın törətdiyi ekoloji soyqırımdan sonra ekologiyanın yenidən formalaşması, yaşıllıqların artırılması kimi hədəflər daxildir.

Bütövlükdə Proqramın əsas özəlliyi ondan ibarətdir ki, sənəddə konkret hədəflər və fəaliyyətlər müəyyən olunub. Hər fəaliyyətə məsul olan dövlət qurumu müəyyənləşdirilib. Bir sözlə, I Dövlət Proqramının imzalanması birmənalı şəkildə qayıdış prosesinin daha da sürətlənməsinə şərait yaradacaq.

Ardı Səh. 6

# Ağalıya köç Böyük Qayıdışın ilk qədəmləridir











Əvvəli-Səh-5

### ZƏNGİLAN ÖZÜNÜN YENİ DÖVRÜNÜ YAŞAYIR

Bəli, bu gün Zəngilan özünün yeni dövrünü yaşayır. İşğaldan azad olunduqdan sonra həyatın canlandığı Zəngilan rayonunun Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışının davam etməsi prosesinə şahidlik etməyimizin özü də ayrı bir xoşbəxtlikdir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilana qayıdışın ikinci mərhələsi çərçivəsində neçə-neçə ailənin məcburi köçkün həyatına son qoyulub, onlar artıq bu adla vidalaşıblar. Bütün bu uğurlar, məhz müharibədən sonra dövlətimizin dərhal düzgün istiqamət götürüb quruculuq-bərpa işlərinə start verməsi oldu. 2020-ci ilin yekunlarına həsr olunan videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bəyan edirdi ki, ənənəvi infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir, ona görə əsas diqqət işğaldan azad edilmiş torpaqlara yönəldilməlidir. Bütün bunlar gerçəkləşdi və Azərbaycanın prioriteti Qarabağa qayıdışdır və Qayıdışın tam olaraq icra edilməsidir. Təbii ki, təkcə Zəngilanın Ağalı kəndinə deyil, işğaldan azad olunmuş bütün şəhər və rayonlara Böyük Qayıdış həyata keçiriləcək. Əlbəttə, kəndlərimiz, şəhərlərimiz yenidən qurulacaq, yurd həsrəti ilə yaşayan məcburi köçkünlər doğma ellərinə dönəcəklər və o yerlərdə həyatın rəngi, ahəngi dəyişəcək. Heç şübhəsiz ki, Azərbaycan dövləti onların layiqli həyatını təmin edir və edəcək də.

### "BİZ GÜCLÜ OLMASAQ, İSTƏDİYİMİZ KİMİ YAŞAYA BİLMƏRİK"

Dövlət başçısı Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə görüşdəki çıxışında dünyada güc amilinin ön planda olması və ölkəmizin öz gücünü artırmasının zəruriliyi məsələsinə toxunaraq bildirdi ki, bu gün güc amili ön plandadır: "Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də".

Bəli, dövlət başçımızın söylədiyi kimi, biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd apara bilər. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur. Məhz Azərbaycan xalqının və dövlətinin gücüdür ki, bu gün 30 ildən sonra

### AĞALIDA İLK NİŞAN MƏRASİMİ OLUB

Uzun illərdən sonra işğaldan azad olunan və qısa müddətdə yenidən qurulan Zəngilan rayonunun Ağalı kəndində nişan mərasimi keçirilib. 30 ildən sonra Ağalıdakı ilk nişan mərasimi Məmmədovlar ailəsinə nəsib olub. Sumqayıt şəhərindən olan Dünyamalıyevlər ailəsi el adəti ilə Ağalıya, Məmmədovlar ailəsinə elçi gəliblər. Beləliklə, valideynlərin də xeyir-duasını alan Rüfət və Arzu üçün nişan mərasimi qurulub və yeni ailənin təməli qoyulub.

Bəli, bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə "Böyük Qayıdış" üçün bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. Və bu gün 30 il əvvəl məcburi köçkün düşən insanlar bundan sonra da Ağalıda nişan və toy mərasimləri təşkil edəcəklər. Ağalılıların sevincinə məcburi köçkünlər, o cümlədən, bütün Azərbaycan xalqı sevinir. Çünki işğaldan azad olunmuş ərazilərin bərpa-quruculuq proseslərindən sonra köçkünlərimizin ilk qayıdışı Ağalıya oldu. 30 il doğma yurduna qayıtmağı xəyal edən məcburi köçkünlərin arzuları Ağalıda reallaşmağa başladı.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizlənləcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Bəli, bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizlənləcək və insanlar öz el-obalarına geri dönəcəklər və Ağalı ilkdir, və son deyil. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

***RƏFİQƏ KAMALQIZI***

# “Cəbhəçilər”lə REAL-çılar qarşı-qarşıya

## *Autsayderlərin "siyasi mübarizə"si "söyüşlü döyüş" formasında davam edir*

***Həqiqət nə vaxt üzə çıxır? Ya həqiqəti söyləməkdən çəkinməyənlər öz sözünü deyəndə, ya da həqiqəti gizləməkdən usanan, gizlətdiyi həqiqətin sahibinin ona badalaq vurduğunu hiss edəndə, görəndə. Lap REAL partiyası ilə AXCP başbilənləri arasında yaşananlar kimi. Hər iki tərəf bir-birinin paxırını qazmağına qədər qaşıyıb yerə töküblər...***



Məlum olub ki, REAL partiyası ləğv olunma təhlükəsi ilə üzləşib. Bu barədə partiya sədri öz paylaşımında hələ bir müddət əvvəl yazmışdı. Bildirmişdi ki, yaxın aylarda REAL 5 min üzvdən ibarət siyahını yeni qanun tələb etdiyi kimi hökumətə təqdim etməsə, bu ilin ikinci yarısında REAL partiyasının dövlət qeydiyyatı ləğv ediləcək”. REAL-ın digər təmsilçisi Natiq Cəfərli isə say məsələsinin bir tələb kimi qoyulmasına etiraz etsə də, öz nümayəndələrinin də təmsil olunduğu Milli Məclisin bu barədə qərarı olduğunu bilməmiş deyil. Məsələ burasındadır ki, Azərbaycan kimi əhalinin sayına uyğun gəlməyən (52 partiya) partiyaların bu qədər çox olması və dövlətdən müəyyən miqdarda vəsait istəməsi də qəbul edilən hal deyildi. Əslində “5 min üzv” tələbi də çox mülayim siyasətdir. Bu qədər üzvü olmayan siyasi təşkilatın meydan rəqabətinə qatılması gülüncdür. Əks arqumentlər səsləndirmək, hökuməti qərəzlikdə ittiham etmək yenə də gücsüzlük əlamətidir. Ən azından seçkiləri göz qabağına gətirmək kifayətdir ki, qanunu qəbul edən qanunverici orqanın nə qədər humanist davrandığının şahidi olasan.

Tutaq ki, bu gün parlament seçkiləri keçirilir. Seçkilərə qatılan partiyaların bütün dairələr üzrə namizədləri, məntəqələrin sayı qədər müşahidəçiləri, bir o qədər də təbliğat kampaniyasında iştirak edəcək nümayəndələri olmalıdır. Sadə hesablama aparsaq hər partiyaya ən azı 6-7 min üzv lazım olacaq. Bu qədər üzvləri olan partiya sizcə, nə qədər olar? Cavab da sadədir, iki, ya üç. Nəzərə alsaq ki, vətəndaşlarımızın heç də hamısı siyasətlə məşğul olmur. Ona görə də üzv toplaya bilməyənlər inciməsinlər, günahı özlərində axtarsınlar.

Gələk, REAL-ın reallığına çəpik çalanların hərəkətlərinə. Ədliyyə Nazirliyinin tələbindən məyus olan REAL-çıların halına gülən AXCP mənsibları bu xəbəri sanki şadyanalıqla qarşılayıblar. Partiyasının qeydiyyatdan keçməməsi məsələsi AXCP və ”milli şura” tərəfindən müzakirə geniş olunub və hələ də diskussiyalar davam edir. Belə demək mümkündürsə, iki partiya arasında ”soyuq müharibə” isti fazaya keçib.

Tofiq Yaqublu, Fuad Qəhrəmanlı, Natiq Cəfərli və digərləri bu barədə etdikləri paylaşımların əksəriyyəti əxlaqdan xeyli uzaq olduğundan onları dərc edə bilmirik. Yalnız nisbətən “abırlıları” oxucunun diqqətinə çatdıracağıq. Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublu paylaşımında yazıb: “Təzad! Deyirdilər ki, mitinqlərə ehtiyac yoxdur, bizim kimi gecə-gündüz seçkilərə hazırlaşmaq lazımdır. İndi məlum olur ki, “seçkiyə hazırlaşanlar” qətiyyən seçkiyə hazırlaşmırlarmış. 5 min (heç 500 nəfər də yoxdur) üzvləri yoxdur ki, onların siyahısını Ədliyyə Nazirliyinə verib partiya kimi qeydiyyatdan keçərək seçkidə iştirak edə bilsinlər. Amma mitinqlər keçirən “seçkiyə hazırlaşmayanlar” seçkilərə daha yaxşı və ciddi hazırlaşırmışlar. Yeri gəlmişkən, bir teledebatda “seçkiyə hazırlaşanlar”ın nümayəndəsinə izah etməyə çalışmışdım ki, seçkilərə hazırlığın ən effektli yolu kütləvi aksiyalardır”.

Bəli, kor tutduğundan əl çəkməyən kimi, Tofiq “bəy” də yapışıb etiraz aksiyalarından. Onun düşüncəsində bir şey var, yəni partiya olmağı belə qəbul edir ki, həmin siyasi təşkilat mütləq hökumətə etiraz etməlidir. Nə etsin, yazıq, özünü döydürməsə, qanında adrenalin aşıb-daşmasa yaşaya bilmir. O, partiyanın mövcudluğunu bunda görür. Əslində başqa tövr davrana da bilmir. Onun heç vaxt sivil mübarizə aparan ətrafı olmayıb. Qrant naminə özünü və ətrafını “əzdirən” birisindən yalnız bu reaksiyanı gözləmək olar.

AXCP RH-nin üzvü Fuad Qəhrəmanlı da REAL-ın düşdüyü vəziyyətdən özünə sərf edən çıxarları edib: “REAL partiyasının üzvlərinin qeyri real olması cəmiyyət üçün bilinən bir gerçəklik idi, ona görə də Ədliyyə Nazirliyinin bu partiyaya cavabı heç kimdə təəccüb doğurmadı”. Bu, fikir əlbəttə, bir partiya mənsubunun münasibətindən çox kinayəsi, qərəzli yanaşmasıdır. Guya AXCP nütün normativləri yüksək səviyyədə verib. “Yurd”un filialına çevrilmiş AXCP-nin bu yaxınlarda keçirilmiş qurultayına nəzər salaq. Sədr seçkisində bu partiya üzvlərinin “cəsarət” keyfiyyətindən nə qədər uzaq düşdüklərini gördük. “Əli Kərimliyə sədr seçkilərində niyə alternativ yoxdur” sualına “yurd”çuların əksəriyyəti cəsarətin olmadığını bəhanə gətirdilər. Belə anlaşıldı ki, AXCP-də cəsarət çatışmazlığı var.

“Formal olaraq Müsavat Partiyasında, faktiki olaraq AXCP-də, siyasi bilik və savad olaraq plintusun (döşəmə ilə divarın birləşdiyi yerə vurulan fiqurlu odun parçası) altında olan Tofiq Yaqublu dünən status yazıb, yalan danışmaqla yanaşı, hər gün tənqid etdiyi, yalançılıqda suçladığı hökumətə sözsüz inamını göstərib, Ədliyyə Nazirliyinin REAL-a bağlı məlumatlarına həqiqət mayakı kimi istinad edərək bizi ittiham edib. Adam deyir ki, heç 500 üzvləri də yox imiş, buna rişxənd edir, nazirliyi haqlı hesab edir. Yaxşı, bunun adı nədir – cığallıq, ya qərəz?!

Hamı deyir ki, Tofiq Yaqublunun nə olsun siyasi savadı yoxdur, amma mərd insandır. Ola bilər, amma mərdliklə biliksiz, sadəlövhlük arasında çox incə, elə plintusvari bir cizgi var...”. Bu isə REAL təmsilçisi Natiq Cəfərlinin statusundandır. İndi özünüz deyin, bunların partiya adına danışmağa, 5 mindən artıq insanı arxasınca aparmağa haqqı çatırmı?

***V.SALAH***

# YAP-ın “Heydər Əliyev İli” çərçivəsində jurnalistlər arasında keçirdiyi fərdi yazı müsabiqəsinin nəticələri açıqlanıb

Yeni Azərbaycan Partiyasının (YAP) “Heydər Əliyev İli” çərçivəsində jurnalistlər arasında “Heydər Əliyev və yeni Azərbaycan” mövzusunda keçirdiyi fərdi yazı müsabiqəsinin nəticələri açıqlanıb. Müsabiqə şərtlərinə uyğun olaraq üç nominasiyanın hər biri üzrə bir nəfər I, bir nəfər II, bir nəfər III yer üzrə qalib olub.

“Tənəzzüldən intibaha: SSRİ dönəmində Azərbaycanın yüksəlişi” adlı birinci nominasiya üzrə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) redaksiya müdiri Abbasəli Yadigarov I, “Səs” qəzetinin müxbiri Lalə Mehralıyeva II, “Xalq cəbhəsi” qəzetinin müxbiri Əli İbrahimov III yerə layiq görülüblər.

“Qurtuluşdan tərəqqiyə: müstəqillik dövründə Heydər Əliyevin yeni və müasir dövlət quruculuğu” adlı ikinci nominasiya üzrə “İki sahil” qəzetinin bölmə müdiri Elçin Namazov I, “Şərq qapısı” qəzetinin müxbiri Ramiyə Əkbərova II, “Kaspi” qəzetinin müxbiri Rufik İsmayılov III yerin qalibi olublar.

“Tərəqqidən Zəfərə: Heydər Əliyev ideyaları ilə yeni zirvələrə doğru” nominasiyasında isə “Yeni Azərbaycan” qəzetinin müxbiri Mübariz Abdullayev I, “Azəri Press Agentliyi”nin redaktoru Ramiz Cürənov II, “moderator.az” saytının redaktoru Seymur Əliyev III yer üzrə qalib adını qazanıblar.

Qeyd edək ki, çap mətbuatı ilə yanaşı, onlayn media subyektlərinin təmsilçiləri, regionlarda fəaliyyət göstərən mətbu orqanların nümayəndələri də müsabiqəyə maraq göstəriblər. Təqdim olunmuş yazılarda Ümummilli Lider Heydər Əliyevin həyat yoluna, xalqımız qarşısında müstəsna xidmətlərinə, zəngin dövlətçilik irsinə, əbədiyaşar ideyalarına nəzər salınıb, önəmli faktlar və maraqlı məqamlar diqqətə çatdırılıb.

Yazıların qiymətləndirilməsi zamanı mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma, yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, jurnalist obyektivliyi və məsuliyyəti, dövlətçilik maraqlarının müdafiəsi kimi meyarlar əsas götürülüb.

# Roman Qureviç: “İsrail və Azərbaycan təcavüzkarın hücumunu dəf edə bilən güclü ölkələrdir”

***“İsrailin müdafiə naziri Yoav Qalantın Azərbaycana səfəri işgüzar olub. O, səfər əsnasında Azərbaycan Prezidenti İlham Əliyev, müdafiə naziri və Dövlət Sərhəd Xidmətinin rəisi ilə görüşüb. Səfərin məqsədi iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi olub”. Bu barədə israilli politoloq Roman Qureviç “STMEGI” saytına bildirib. Onun sözlərinə görə, mövcud olan məlumatlara əsasən, Azərbaycanın 2016-2020-ci illərdə silah idxalının 69 faizi İsrailin payına düşüb.***



“Şübhəsiz ki, bu, Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğal olunmuş ərazilərin azad edilməsinə xidmət edib. Son zamanlar ölkələr arasında kibertəhlükəsizlik sahəsində də əməkdaşlıq inkişaf edir ki, bu da istənilən ölkənin həyati vacib infrastrukturların müdafiəsi üçün zəruridir. Təsadüfi deyil ki, Azərbaycanda İsrailin köməkliyi ilə kibertəhlükəsizlik üzrə mütəxəssislər üçün kurslar açılıb.

Müasir dünyada bir çox müharibələr kiberməkanda aparılır, təhlükəsizliyi təmin etmək və elektrik stansiyaları, neft yataqları, hava limanları və bu kimi digər həyati vacib infrastrukturları müdafiə etmək bacarığı prinsipcə çox vacibdir. Ehtimal edə bilərəm ki, söhbət, o cümlədən bu barədə gedib və ya gedə bilərdi”, - deyə R.Qureviç qeyd edib. Politoloq deyib ki, Azərbaycan ilə İsrail arasında münasibətlər artıq çoxdandır ki, sadəcə tərəfdaşlıq xarakterinə yüksəlib.

“Bu, ümumi maraqlara əsaslanan möhkəm dostluq münasibətləridir, İsrail və Azərbaycanın özünü müdafiə etmək və təcavüzkarın hücumunu dəf etmək qabiliyyətinə malik güclü ölkələr olduğunu anlamaq vacibdir. Eyni zamanda, iki ölkə arasında əməkdaşlıq heç bir halda istənilən üçüncü ölkəyə qarşı yönəlməyib, yalnız regionda sabitliyin möhkəmləndirilməsinə istiqamətlənib. Məhz bu səbəbdən regionda sabitlik, sülh və inkişafın gücləndirilməsinə şərait yaradan bu əməkdaşlığı inkişaf etdirmək və genişləndirmək prinsipcə vacibdir”, - deyə R.Qureviç bildirib.

# Azərbaycan-Özbəkistan arasında strateji tərəfdaşlıq



*İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Özbəkistan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. Reallaşdırılan qarşılıqlı səfərlər, bu səfərlər çərçivəsində imzalanan sənədlər, müzakirə edilən məsələlər, vahid mövqenin nümayiş etdirilməsi özlüyündə əlaqələrin inkişafına böyük stimul verir. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə" müxtəlif sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi kimi məsələlər ehtiva edərək, böyük əhəmiyyət kəsb edir.*







Xatırladaq ki, ölkələrimizin diplomatik münasibətlərinin 1995-ci il oktyabrın 2-də qurulmasına baxmayaraq, Azərbaycan və özbək xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Daşkənd və Bakı şəhərlərində dahi şairlərimizin Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin açılması, Azərbaycan paytaxtının küçələrindən birinə dünyaşöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında tarixən mövcud olan qarşılıqlı marağın və hörmətin parlaq nümunələridir. Ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra- 1996-cı ilin ortalarında Azərbaycanın Özbəkistanda, 1998-ci ilin mayında Özbəkistanın Bakıda səfirlikləri fəaliyyətə başlayıb.

Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan, 1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub. 1997-ci il iyunun 18-19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Özbəkistana rəsmi səfərini isə münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirilir. Həmin səfər zamanı Daşkənddə ölkələrimiz arasında 19 sənəd imzalanıb. Bu sənədlər içərisində "Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə" böyük əhəmiyyət kəsb edir. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün möhkəm fundamental hüquqmüqavilə bazası yaradıb. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il martın 23-24-də Özbəkistanda dövlət

## Təhlil

### QARDAŞLIĞIN NÜMUNƏSİ

Bu gün Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 19-da Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul etməsi əlaqələrin davamlığından qaynaqlanır. Görüş çərçivəsində ikitərəfli səfərində olması, əlaqələrin davamlığına söykənir. Səfər zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Strateji münasibətlərin əsasını qoyan həmin sənəddə bildirilir ki, tərəflər keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdiklərini ifadə edirlər. Təsadüfi deyil ki, Özbəkistan BMT Baş Assambleyasında 2008-ci il martın 14-də səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub.

### ÖLKƏLƏR ARASINDA DOSTLUĞUN VƏ

münasibətlərin ildən-ilə daha da inkişaf etdiyini vurğulayan Azərbaycan Prezidenti gələcəkdə də əməkdaşlığın genişləndirilməsi ilə bağlı yeni uğurlu layihələrin icra olunacağına əminliyini bildirib. Özbəkistanda keçirilmiş seçkilərdən sonra Şavkat Mirziyoyevi təbrik edən ilk dövlət başçısının məhz Prezident İlham Əliyev olması dövlət başçıları və ölkələr arasında dostluğun və qardaşlığın nümunəsidir. Görüşdə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri və bu səfər çərçivəsində əməkdaşlığımızın hərtərəfli inkişafı ilə əlaqədar müəyyən edilmiş prioritet sahələr, bu istiqamətdə görülmüş işlərin nəticələrinin çox müsbət olduğu qeyd edilib, iqtisadi-ticarət, investisiyalar, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, sənaye sahələrində yeni layihələrin həyata keçirildiyi diqqətə çatdırılıb. Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti vurğulanıb, Azərbaycanda yaradılmış azad iqtisadi zonada Özbəkistan şirkətlərinin iştirakı perspektivləri, hökumətlərarası komissiyanın fəaliyyəti və iyulun 18-də Şuşada keçirilən Azərbaycan-Özbəkistan Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasının önəmi qeyd edilib.

Göründüyü kimi, dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir.

**Nəzakət ƏLƏDDİNQIZI**

## YAP nümayəndələri Kamboca Krallığında parlament seçkilərini müşahidə edəcəklər

Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) müşahidə missiyası 2023-cü il iyulun 23-də Kamboca Krallığında keçiriləcək parlament seçkilərini müşahidə edəcək.

ICAPP-ın baş katibi Ahn Myung-soo və təşkilatın Daimi Komitəsi sədrinin müavini, Kamboca Krallığı Milli Assambleyası sədrinin müavini xanım Xuon Sudari ICAPP Daimi Komitəsinin üzvü olan Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının rəhbəri Tahir Budaqovu da seçkiləri müşahidə etmək üçün səfərə dəvət ediblər.

2023-cü il 19-24 iyul tarixlərini əhatə edəcək səfər çərçivəsində ICAPP müşahidə missiyasına daxil olan nümayəndələr Kamboca Krallığının baş naziri, Kamboca Xalq Partiyasının prezidenti Hun Sen, digər rəsmi şəxslər və ölkədəki müxtəlif partiyaların rəhbərləri ilə görüşlərdə və seçki prosesinin müşahidəsinin nəticələri ilə bağlı brifinqdə iştirak edəcəklər.

ICAPP-ın müşahidə missiyasının tərkibinə YAP üzvü, "Millennium Tourism & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru, ICAPP Biznes Şurasının üzvü Ruslan Quliyev də daxildir.

# "Üçtərəfli Bəyanatın şərtlərinə əməl edən yeganə tərəf Azərbaycandır"



*"Azərbaycanın Qarabağ iqtisadi rayonunda, daha dəqiq desək, Rusiya sülhməramlılarının məsuliyyət zonasında baş verən hadisələr bəzi qüvvələr tərəfindən süni şəkildə ortaya atılmış, tərəflər arasında münasibətlərdə gərginliyi bir az da artırmağa hesablanmış niyyətlərdir. Çox təəssüflər ki, Rusiya ilə Azərbaycan arasında strateji müttəfiqlik müqaviləsi imzalansa da şimal qonşumuzun bəzi siyasi dairələrində bundan narahat olan qüvvələr var.*

Həmin qüvvələr daim Azərbaycan-Rusiya münasibətlərində gərginlik, hətta münaqişə yaratmağa cəhd edirlər. Ona görə də həmin qüvvələr Qarabağda sülhməramlıların normal fəaliyyət göstərmələrinə qarşı çıxır, separatçıları ümidləndirir və Azərbaycanla növbəti müharibəyə hazırlayırlar". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat bildirib ki, son hadisələr separatçıların yeni təlimatlar aldığına işarədir: "Azərbaycan tərəfinin təkliflərinə, o cümlədən humanitar yüklərin Bərdə-Ağdam-Xankəndi yolu ilə daşınmasına ermənilərin aksiyalarla cavab verməsi dara düşmüş, sıxıntı içərisində yaşayan, tibbi müayinəyə ehtiyacı olanların reaksiyası deyil. Bunlar bütünlüklə separatçılıq əlamətləridir. Maraqlı burasıdır ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK)və Rusiya sülhməramlıları Azərbaycanın təklif etdiyi daha asan və az xərc tələb edən marşrutla deyil, Laçın yolu ilə yükləri daşımaq istəyirlər. Sual olunur, niyə? BQXK beynəlxalq təşkilatdır və bu qurumun Azərbaycanda da nümayəndəliyi var. Yükləri də Azərbaycandakı bürosu təşkil edə bilərsə BQXK niyə Laçın yolunu israr edir? Deməli, məsələ biz düşündüyümüz kimi deyil, BQXK erməni sifarişi ilə çalışır ki, bu da həmin qurumun öhdəlikləri, nizamnaməsi ilə uyğun gəlmir. Laçındakı sərhəd-keçid məntəqəsində Qırmızı Xaç Komitəsinin yük maşınında ələ keçirilən qanunsuz yüklər də dediklərimizi sübuta yetirir. Təbii ki, bu da haqlı narazılığa səbəb olur. Rusiya sülhməramlılarına gəldikdə isə, onlar gəldikləri gündən hər iki tərəfdə narazılıqla qarşılanıblar. 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatı imzalanandan dərhal sonra Qarabağa daşınan sülhməramlılar sənədin bəndlərinin ziddinə olaraq addımlar atmağa başladılar. Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini Qarabağdan çıxarmaq əvəzinə, İrəvandan avtobuslarla "qarabağlılar"ı daşıyıb Azərbaycan torpaqlarına gətirdilər. Bəyanatın növbəti bəndində yazılanların əksinə olaraq, azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına əngəl törətdilər. Ermənistandan isə danışmağa dəyməz, məğlub ölkə münaqişənin, müharibənin sonunda baş verənlərə uyğun olaraq sülh müqaviləsi imzalamaq, nəticə ilə barışmaq əvəzinə hələ də möcüzənin baş verəcəyi ümidi ilə yaşayır. Bu savaşın sonunda yeganə düzgün mövqe tutan, üçtərəfli Bəyanatın şərtlərə əməl edən Azərbaycandır".

---

## DİQQƏT: Arıqlama çayları və preparatlarının zərərləri BUNLARDIR



**MÜTƏXƏSSİS AÇIQLADI**

Arıqlamaq və ya çəki atıb fit bədənə sahib olmaq bir çox insanın məqsədidir. Arıqlamaq üçün pəhriz saxlayıb idman etmək kimi sağlam üsullar olsa da, bir çox insan nəticəni gec gördüyü və ya sadəcə, tənbəl olduğu üçün arıqlamağa kömək etdiyini iddia edən çaylar və dərman vasitələrinə üz tutur. Əlbəttə ki, belə vasitələrin tam sağlam olduğu da şübhəlidir.

Arıqlama çayları və preparatları haqqında SİA-ya qida mütəxəssisi Asim Vəliyev danışıb: "Bir çox arıqlama çayları çəki atmağa kömək olsa da, bu çayların təsiri fərdlərə görə dəyişə bilir. Məsələn, arıqlama çaylarının bir çoxu eynən kofedəki kimi kofein ehtiva edir. Çox kofein qəbulu ürək döyüntüsü, yuxusuzluğa səbəb ola bilir. Bəzən də orqanizmdən suyun xaric olmasına kömək edən bitki çayları su itkisinə səbəb olduğu üçün halsızlığa gətirib çıxara bilir. Ancaq bütün bitki çaylarının yan təsirinin eyni olduğunu söyləmək yanlış olar. Hər bir bitki çayının qarışımı fərqli olur. İstər arıqlama çayı olsun, istər bitki çayı, bunların hamısı orqanizmdə bəzi dəyişikliklərə səbəb olur. Necə ki, hər ağlımıza gəldikdə dərman qəbul etmək olmaz, eləcə də arıqlama çayı, bitki çaylarını da bu cür içməməliyik, içərkən ifrata qaçmamalıyıq. Hamiləlik, südvermə kimi həssas dövrlərdə isə mütəxəssis məsləhəti almaq lazımdır. İlk olaraq "arıqlama çayı" olaraq aldığımız məhsulun həqiqətən təbii olub-olmadığını öyrənməliyik. Arıqlama çayı olaraq satılan çaylar müvafiq qurumların icazəsi ilə satışa çıxır. Məhsulun qablaşdırmasında icazənin olub-olmadığına baxmalıyıq.

Kofein və bənzər maddələr ehtiva edən çaylar ürək döyüntülərinin artımına və "taxikardiya" deyilən ürək ritm pozuntusuna səbəb ola bilir. Arıqlama həbləri kimi arıqlama çayları da iştahı azaltmaq üçün kimyəvi maddələr ehtiva edir. Bu maddələr orqanizmə daxil olduqda mərkəzi sinir sisteminə təsir edir və qan təzyiqinin yüksəlməsi ilə ürək-damar sistemini yükləyir. Əgər bu cür çayları qəbul etdikdən sonra ürək döyüntüsü artırsa, bir daha içilməmlidir. Həmçinin bu maddələr baş hərlənməsi, qusma kimi yan təsirlərə də səbəb ola bilir. Avtomobil sürənlər üçün bu hal daha təhlükəlidir. Oturarkən ayağa qalxdıqda baş gicəllənməsi nəticəsində müvazinət itə bilər. Ümumiyyətlə, bu çaylar orqanizmdən su xaric olmasını sürətləndirir, bağırsaqları yumşaldır. Uzun müddət istifadə olunduqda bağırsaq tənbəlliyinə və çox susuz qalmağa səbəb olur. Beləliklə, bağırsaqların funksiyası pozulur və xroniki qəbzlik kimi problemlər ortaya çıxır".

**Aysel Naibli**

## "Sülh müqaviləsinin imzalanması üçün bütün məsələlər müzakirə olunaraq şifahi razılaşdırılıb"



***"15 iyulda keçirilmiş Brüssel görüşü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması baxımından çox əhəmiyyətli olmuşdur". Millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.***

Onun sözlərinə görə, bu görüş ölkələrimiz arası münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə bağlı keçirilmiş əvvəlki görüşlərin davamı kimi qeyd etmək olar: "Görüşdə dövlət başçıları ölkələrarası münasibətlərin normallaşdırılması ilə bağlı müzakirə olunmalı bütün məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Bu görüşdə də Azərbaycan və Ermənistanın ərazi bütövlüyü suverən parametrlər çərçivəsində qarşılıqlı tanıdıqlarını bir daha bəyan etmişdir. Gündəlikdə dayanan məsələlər sərhədlərin delimitasiyası, Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliklərinin Azərbaycan tərəfindən həyata keçiriləcəyi, Bakı ilə Qarabağ ictimaiyyəti arasında dialoqun təşkil edilməsi və inteqrasiya prosesinin reallaşdırılması, Qarabağda yaşayan ermənilərin Ağdam -Xankəndi yolu vasitəsilə təminatın həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması üçün dəmir yolunun yenidən qurulma prosesinin intensivləşdirilməsi, o cümlədən Qərbi azərbaycanlıların öz doğma yurdlarına qaydışı və gündəlikdə duran digər məsələlər ətrafında müzakirə aparılmışdır. Dövlət başçılarının növbəti görüşün keçirilməsi ilə bağlı razılaşması da sülh prosesinin canlanmasının göstəricisi hesab edirəm. Əslində, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün lazımi bütün məsələlər müzakirə olunaraq şifahi razılaşdırılmışdır. Burada həll olunmalı növbəti məsələ danışıqlar masasında razılaşdırılmış məsələlərin kağız üzərində imzalarla təsdiq edilməsidir. Bunun üçün Ermənistanın təxribatlar törətmək mövqeyindən çəkinərək konstruktiv mövqe sərgiləməsi vacibdir".

**GÜLYANƏ**

# BMT-nin Cenevrə Bölməsində Emil Nəsirlinin “Heydər Əliyev həyatının 100 anı” kitabının təqdimatı olub





***İsveçrənin Cenevrə şəhərində müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasi və dövlət xadimi, nəhəng siyasi nailiyyətləri ilə dünyanı heyran edən Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar “Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri” beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş “Heydər Əliyev həyatının 100 anı” kitabının təqdimat mərasimi keçirilib.***

Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə ofisində keçirilən təqdimat BMT-nin Cenevrədəki Qərargahının, ofisinin, Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin və “Azərbaycanım” beynəlxalq jurnalı tərəfindən birgə təşkil olunub.

Təqdimat mərasimində çıxış edən Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki Bölməsinin Baş direktoru xanım Valovaya Tatyana Dmitrievna dünyanın ən nüfuzlu və universal təşkilatı olmasını nəzərə alaraq Heydər Əliyevin BMT-Azərbaycan əlaqələrinə xüsusi önəm verməsi barədə fikirlərini bölüşərək, bu sahədə Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, dahi şəxsiyyətin dünyada və regionda baş verən siyasi hadisə və prosesləri dərindən və hərtərəfli təhlil edərək, ilk növbədə, Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasında səylərindən danışıb.

Sonra Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisinin Baş direktorunun Kabinet rəhbəri, həmçinin “Heydər Əliyev həyatının 100 anı” kitabının redaksiya heyətinin üzvü David Çikvaidze çıxış edib. Heydər Əliyevlə görüşlərinin təəssüratını bölüşən natiq bildirib ki, dünya şöhrətli siyasi xadim Heydər Əliyev mahir dövlət qurucusu kimi öz strateji fəaliyyəti ilə ölkəsinin və xalqının işıqlı gələcəyini uzunmüddətli perspektivdə bacarıqlı, davamlı və uğurlu idarəetmə ilə möhkəmləndirməyə nail olub. D.Çikvaidze Azərbaycana ilk dəfə 1994-cü ilin dekabrında BMT nümayəndə heyətinin tərkibində ölkənin çətin vaxtlarında humanitar ehtiyaclarının müzakirəsi üçün səfər etdiyini xatırlayıb.

“Nümayəndə heyəti ölkəsini xilas etmək və onu SSRİ-nin süqutundan sonra düşdüyü dərin böhrandan çıxarmaq üçün yenicə hakimiyyətə qayıtmış Prezident Heydər Əliyev tərəfindən qəbul olundu. Heydər Əliyev BMT nümayəndə heyətinin hər bir üzvünü şəxsən salamladı. O, ölkədəki vəziyyəti dərindən təhlil edərək yaranmış durumun Cənubi Qafqaza və bütün Avrasiyaya təsirindən bəhs etdi və bu bizi çox mütəəssir etdi. Biz bilirdik ki, O, adi bir siyasətçi deyil, müasir tarixin mühüm bir simasıdır”, - deyə Çikvaidze əlavə edib.



Heydər Əliyevin qurduğu dövlətin əsasları Prezident İlham Əliyevin rəhbərliyi altında dayanmadan möhkəmlənməyə davam etdiyini xatırladan D.Çikvaidze deyib: ”Azərbaycan, həmçinin BMT-nin fəal və konstruktiv üzvüdür”.

Təqdimat mərasimində çıxış edən Azərbaycan və ingilis dillərində nəşr olunan “Heydər Əliyev həyatının 100 anı” kitabının müəllifi, “Azərbaycanım” beynəlxalq jurnalının baş redaktoru, Beynəlxalq Elmlər Akademiyasının müxbir üzvü Emil Nəsirli bildirdi ki, Ulu Öndər Heydər Əliyev dahi bir şəxsiyyət kimi ölkəni parçalanmaq təhlükəsindən qurtarıb və Azərbaycanı dünyanın tanınan, stabil inkişaf edən dövlətlərindən birinə çevirib. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir.

Ulu Öndərimizin şərəfli ömür yolundan, Vətənimiz qarşısında tarixi xidmətlərindən danışan müəllif Emil Nəsirli qeyd edib ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq aləmdəki nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub, müstəqilliyimizin əbədi və dönməz olması təmin edilib.

Ümummilli Liderin çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim olduğunu diqqətə çatdıran müəllif deyib ki, Azərbaycanın böyük oğlu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı ilə hər zaman insanları heyran qoyub. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış ”Əsrin müqaviləsi” ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. ”Əsrin müqaviləsi” və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi. “1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir”, - deyə Emil Nəsirli vurğulayıb.

Daha sonra müəllifi olduğu “Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri” beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş “Heydər Əliyev həyatının 100 anı” kitabı haqqında geniş məlumat verən Emil Nəsirli Ulu Öndərin göstərdiyi misilsiz xidmətlərdən söz açaraq, parlaq şəxsiyyətin fəaliyyətini araşdırdıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, xalqına son dərəcə böyük sevgi və hörmətlə yanaşmasını heyrətamiz hiss kimi səciyyələndirib.

“Xalqını, dövlətini ürəkdən sevən, dövlətin müəyyənləşdirdiyi siyasi xəttə sədaqət göstərən, milli-mənəvi dəyərlərimizi təbliğ edən hər bir gənc dövlətçilik atributlarına hörmətlə yanaşır, tariximizin, milli-mənəvi dəyərlərimizin, dövlət sərhədlərimizin qorunmasını, Vətən, torpaq uğrunda mübarizəni özünün vətəndaşlıq borcu sayır. Zaman ötsə də, Azərbaycan xalqının böyük oğlu, tarixi şəxsiyyət Heydər Əliyev irsinə maraq azalmır, əksinə, insanlar bu böyük şəxsiyyətin həyat və fəaliyyəti ilə daha yaxından tanış olmaq istəyirlər”, - deyə “Azərbaycanım” beynəlxalq jurnalının baş redaktoru Emil Nəsirli qeyd edib.

Natiq bildirib ki, Ulu Öndər bütün fəaliyyəti boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olmuş, xalqı ardınca aparmışdır. Bu gün xalqımız Ümummilli Liderin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ətrafında sıx birləşmişdir.

“Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi istər birinci, istərsə də ikinci dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsinə çevrilib. Bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın”, - deyə müəllif Emil Nəsirli vurğulayıb.

Qırğız Respublikasının BMT-nin Cenevrədəki Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Ömər Sultanov, Türkiyə Respublikasının BMT-nin Cenevrədəki Bölməsi və İsveçrədəki digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Güven Begeç, Azərbaycan Respublikasının BMT-nin Cenevrədəki Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin müvəqqəti işlər vəkili Dilarə Abdullayeva çıxışlarında Ümummilli Lider Heydər Əliyevin zəngin mənalı həyat və fəaliyyətinin mühüm hissələrinə toxunublar. Ulu Öndər Heydər Əliyevin siyasi və diplomatik sahədə Azərbaycana qazandırdığı böyük uğurlardan bəhs edib. Sonra tədbirdə təqdimatı keçirilən kitabın videoslaydı təqdim olunub.

Təqdimat çərçivəsində, həmçinin dünyanın siyasi tarixində özünəməxsus yeri olan, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin irsinin bir çox məqamları, əbədiyaşar liderin müstəqil Azərbaycanın Prezidenti kimi, respublikanın daxili və xarici siyasətdə qazandığı uğurlarda misilsiz xidmətləri haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, ümumilikdə 553 səhifədən ibarət olan “Heydər Əliyevin həyatının 100 anı” kitabı Azərbaycanın xilaskar oğlunu Ümummilli Lider zirvəsinə ucaldan real işlərin, gərgin əməyini, yüksək insani keyfiyyətlərini, vətəninə və xalqına bağlılığını özündə ehtiva edir. Azərbaycan və ingilis dillərində yazılaraq nadir üslubda nəfis tərtib olunan rəngli nəşrin əvvəlində Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi” haqqında Azərbaycan Prezident Sərəncamının mətni iki dildə yerləşdirilib. Mündəricat, ön söz, giriş və ədəbiyyat siyahısından ibarət nəşrdəki məqalələr və nadir fotolar Ümummilli Lider Heydər Əliyevin xalq, vətən, ölkə və dövlət qarşısındakı misilsiz xidmətlərini tərənnüm edir. Nəşrdəki materiallar Ulu Öndərin bəşəri prinsipləri barədə oxucuda real təsəvvür yaradır.

Çıxışlarda xüsusi olaraq qeyd olunub ki, “Heydər Əliyevin həyatının 100 anı” kitabı dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyəti barədə müfəssəl məlumat verməklə bərabər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından da nadir nəşrlər sırasındadır.

“Heydər Əliyevin həyatının 100 anı” kitabının ilk təqdimatı mayın 5-də Bakıda, Atatürk Mərkəzində keçirilib. Xarici ölkələrdəki təqdimatlar isə İstanbulda, Parisdə və İsveçrənin Cenevrə şəhərlərində olub.





# Nə qədər ki, revanşistlər var...

*Ermənistanda yalnız hakimiyyət dairələrində deyil, eləcə də hakimiyyətə qarşı müxalif olanlar arasında mövcud məğlubiyyət vəziyyəti ilə barışmayanların fəaliyyətləri kimsəyə sirr deyil. Eyni zamanda, erməni hərbi-siyasi isteblişmentinin demək olar ki, 99,9 faizi əllərində imkan olarsa, dərhal Azərbaycana qarşı ərazi iddiaları çərçivəsində növbəti müharibə aparmaq maraqlarının da mövcudluğu qalmağa davam edir. Əgər bu gün Nikol Paşinyan hökuməti başda baş nazirin özü olmaqla xarici işlər naziri, parlament sədri miqyasında, sözdə "sülh sazişi imzalamaq" adı altında "bəyanatlar" səsləndirilirsə, həmin "bəyanatların" hələ də əməli sübutunun, reallığının aşkar tərəfi görünməməkdədir.*

## Azərbaycan əsgərinin əli tətikdə olacaq!

### Ermənistan hakimiyyətinə etibar etmək, inanmaq doğru seçim deyil!

O cümlədən, belə olsa idi 2020-ci ilin 10 noyabrında, 2021-ci ilin 11 yanvarında imzalanmış üçtərəfli sənədlərdəki bəndlər, şərtlər dərhal icra olunardı və bu qədər vaxt süni şəkildə uzadılmazdı. Yeni fakt budur ki, dövlət başçımızın da vurğuladığı kimi, Ermənistan hakimiyyətinə etibar etmək, inanmaq doğru seçim deyil. Bu günə qədər istər Rusiya, istərsə də Avropa vasitəçilərinin təşəbbüsləri ilə aparılan danışıqlar, imzalanan bəyanatlar, məhz erməni tərəfinin yersiz, əsassız və mənasız cəhdləri ilə nəticəsiz qalır...

### Ermənistan müxalifətinin revanşistləri, məhz danışıqlar mərhələlərində oyunu öz xeyirlərinə çevirməyə cəhdlər göstərirlər

Bəlkə də Ermənistan rəhbərliyi belə addımları ilə "vaxt udduqlarını" sansalar da, əslində, özlərini nə qədər çıxılmaz dalana doğru sürüklədiklərinin də fərqinə varmırlar. Biz son proseslərdə, xüsusilə, Qarabağ regionunda qalan erməni quldur separatçılarının fəallaşmalarında da həmin halı müşahidə etməkdəyik. Lakin qeyd olunanlarla yanaşı, Ermənistan müxalifətinin revanşistləri, məhz danışıqlar mərhələlərində oyunu öz xeyirlərinə çevirməyə cəhdlər göstərirlər. Məsələn, onlar hakimiyyətə qarşı çıxışlar etməklə daxillərindəki revanşizm hisslərini daha aşkar formada nümayiş etdirməkdədirlər. Misal üçün, Ermənistan parlamentinin "Hayastan" fraksiyasının deputatı Geqam Manukyan deyib ki, Ermənistanda elə vətəndaşlar var ki, onlar yaranmış situasiyaya reaksiya göstərirlər, müəyyən fikirlərini bildirirlər: "Həm də elə insanlar var ki, onlar üçün heç nəyin fərqi yoxdur və onlara elə gəlir ki, bu cür münasibətləri ilə baş verənlərdən kənarda qalacaqlar və təəssüf ki, belələri Ermənistanı daha pis vəziyyətə doğru aparacaqlar". Bu minvalla iqtidarın fəaliyyətsizliyinə işarə edən erməni müxalifətçi deputatı bildirir ki, insanlar dünyadakı vəziyyətin daha təhlükəli olduğunu görürlər: "Təsadüfi deyil ki, vətəndaşlar üçün bir nömrəli məsələ təhlükəsizlik məsələsidir. İnsanlar özlərini müdafiəsiz hiss edirlər", deyən Manukyan fikirlərini müharibədən sonrakı vəziyyətə gətirərək, əslində, hakimiyyəti hədəfə alır.

### Ermənistanın mövcud hakimiyyəti 18 yaşlı gənclərin bundan sonra ön xəttə xidmət aparmamaları ilə bağlı danışarkən vətəndaşları aldadır

Xüsusilə, ən həssas mövzuya toxunan erməni müxalifətçisi mövzusunu cəbhə xəttində xidmət aparmağa göndərilən əsgərlərin valideynlərinə tərəf çevirir: "Çox kədərli faktı qeyd etmək istərdim. Bir çox valideynlər müharibədən sonra ümid edirdilər ki, onların övladları bundan sonra heç vaxt təhlükəli cəbhələrdə, Qarabağda xidmət aparmayacaqlar, ancaq onlar bu gün görürlər ki, övladları kifayət qədər pis şəraitdə yerləşiblər. Hakimiyyət yalan danışıb".

Onun sözlərinə görə, Ermənistanın mövcud hakimiyyəti 18 yaşlı gənclərin bundan sonra ön xəttə xidmət aparmamaları ilə bağlı danışarkən vətəndaşları aldadır. Reallıqda isə valideynlər görürlər ki, onların övladlarını, həqiqətən də, ön cəbhəyə sərhəd qoşunlarına göndərirlər. Revanşist Geqam Manukyan hesab edir ki, yeni hərbi əməliyyatların başlanması təhlükəsi əvvəlkindən daha çoxdur."Qarabağda anlamalıdırlar ki, Ermənistan Respublikası, erməni xalqı Qarabağdan imtina etməyiblər. Hakimiyyətin iqtidardan uzaqlaşdırılması bizim gündəmimizdədir", deyən erməni müxalifətçi deputatı açıq-aşkar işğalçılıq mövqeyində qaldığını sübuta yetirmiş olur. Ona görə də ölkəmizdə də yaxşı bilirlər, nə qədər ki, Ermənistandakı istər hakimiyyət, istərsə də müxalifət cinahlarında revanşistlər varsa, qalırlarsa, Azərbaycan əsgərinin əli tətikdə olacaq!

**Afət Tahirqızı**






# Cizgisindən çıxan cizgi filmləri









***Müasir uşaqlar daha çox yeni tipli cizgi filmlərinə baxmağa üstünlük verirlər, hansı ki, mütəxəssislər bu tip filmlərin uşaqların psixologiyasında dərin və zərərli iz buraxdığını söyləyirlər. Uşaqlara aqressivlik, zorakılıq təbliğ edən cizgi filmləri getdikcə çoxalır.***

### Cizgi filmlər nəyi təbliğ etməlidir?

Mütəxəssislər deyir ki, cizgi filmləri uşaqların özünü dərk etməsi, ətraf aləmi kəşf etmələri üçün önəmli rola malikdir. Amma bu, hər cizgi filminə aid edilə bilməz. Bu gün telekanalları zəbt edən qanlı, döyüşlü-davalı multfilmlər uşaq psixologiyasına olduqca böyük zərər verir. Yenicə ətraf aləmlə tanışlığa başlayan uşaq cizgilərdəki münasibəti həyatında da görmək istəyəcək.

Çoxları razılaşar ki, 35-40 yaşlı insanlar sülhü, paylaşmağı, sakitliyi, təbiəti və heyvanları sevməyi daha yaxşı bacarırlar. Təbiidir, onlar körpəlikdə bu cür hissləri aşılayan cizgi filmlərinə baxıblar.

Uşaqdan böyüyə hamının bəyəndiyi iki cizgi filmi var- "Nu poqodi" və "Tom and Jerry". Əminəm ki, bu filmlərin yalnızca adı gələndə də çoxunuzun üzündə təbəssüm yaranır. Uşaqlığımızın ən sevimli cizgi filmi olan "Nu poqodi" 18 hissəli bir film idi. Anatoli Papanovun çəkdiyi bu film indiyə qədər o populyarlığını itirməyib.

İlk seriyası 1969-cu ildə çəkilən cizgi filmi 1993-cü ilədək davam etdi. Papanov 18 hissə çəkdi. Rejissorun ölümü ilə əlaqədar film dayandı. Yalnız 2005-ci ildə 19-cu seriya, 2006-cı ildə isə 20-ci seriya çəkildi. Amma İqor Xristenkonun çəkdiyi son iki hissə başarılı olmadı. Tamaşaçılar Papanovun yaradıcısı olduğu bu cizgi filminin ilk 18 seriyasını daha çox bəyənir.

Məşhur "Tom və Cerri" cizgi filmi. Əsasən, 2 personajdan ibarət bir filmdir, olduqca maraqlı və uşaq psixikası üçün ilk baxışda zərərsizdir. Pişik və siçanın əbədi münaqişəsi elə maraqlı bir formada təqdim edilir ki, uşaqlar onların bir-birini sevdikləri ni və bu münaqişənin bir zarafat olduğunu anlayır. Lakin bu multfilmdə də zorakı səhnələr, aqressiv hərəkət və səslər az deyil.

### Müasir cizgi filmlərinin 4 əsas zərəri

Uşaqlarda televizora maraq 18 aylıq olarkən yaranır. Amma bu, hələ onların tamaşaçı olduğunu demir. Uşaqlarda 2-4 yaşından başlayaraq cizgi filmlərinə maraq başlayır. Bu yaşda olan uşaqların təqlidetmə qabiliyyəti yavaş-yavaş yaranır. Baxdıqları cizgi filmləri bu yöndə önəmli təsirə malikdir. Tez-tez kadr dəyişikliyi körpə beynində qarışıqlığa və pozğunluğa da səbəb ola bilər. 3-6 yaş arası uşaqlarda isə bu təsirin önəmi daha da artır, çünki araşdırmaçılar bu yaş qrupuna aid uşaqlarının televiziya izlərkən "məna" axtardığını ortaya çıxardılar.

6-11 yaş qrupuna aid uşaqların izlədiyi proqramların təsirləri daha çoxdur, çünki bu yaş qrupu uşaqlarda diqqət və dəqiq izləmə tam inkişaf etmiş olur. Cizgi filmlər uşaqlara 4 formada mənfi təsir edə bilər: Zorakılığa yönləndirmə: Araşdırmalara görə şiddət, qorxu məzmunlu cizgi film izləyən uşaqların digər yaşıdlarına görə daha çox dalaşqan, üsyankar olur. Ətraflarına daim zərər vermək barədə düşünürlər və cox aqressiv olurlar.

İkincisi, diqqətsizlik: Mütəxəssislərin fikrincə, gündə orta hesabla 4-5 saat cizgi filminə baxan uşaqlarda diqqət əskikliyi olur. Onlarda aktivlik yaşıdlarına nisbətən 30-40% az olur. Üçüncüsü, reaallıqdan uzaqlaşma: Valideynlər diqqət etməsə, uşağın izlədiyi cizgi filmlər hər gün bir az da onun həyatına girir. Uşaq artıq özünü o personajlardan biri hesab etməyə başlayır. Belə uşaqlar həmişə gerçək olmayan dünyada yaşayırlar, reallığa adaptasiya ola bilmirlər.



Dördüncüsü, ehtiyatlı davranışın azalması və risk artımı: Xüsusilə, 10-12 yaş aralığında olan və mühakimə bacarığı hələ inkişaf etməmiş uşaqlar gerçəklə xəyal arasındakı fərqi təyin etməyi etməkdə çətinlik çəkir. Ona görə də, onlar ciddi təhlükəsizlik problemləri yaşaya bilirlər. Cizgi filmində gördükləri hərəkətləri gerçəklikdə də sınaqdan keçirmək istəyirlər. Batman kimi uçmaq, Hörümçək adam kimi divara dırmaqmaq istəyib həyatını itirən az uşaq olmyıb.

### Zorakılıq təbliğ edən cizgi filmlərinə baxan uşaqlar...

Psixoloq Məlahət Həsənova deyir ki, uşaqlar körpəlikdə izlədikləri cizgi filminin məzmununa deyil, daha çox rəngli kadrlarına və maraqlı səslərinə diqqət edirlər: " İnsan və heyvan fiqurları da bu yaşda uşaqların marağını daha çox çəkir. Hər yaş qrupu izlədiklərindən fərqi yollarda təsirlənir. Məktəb yaşlı uşaqlarda, daha çox oğlanlarda şiddət, qorxu aşılayan filmlərə maraq yaranır. Bunun səbəbi də telekanallarda yalnız bu məzmunlu filmlər yayımlanmasıdır".

Psixoloq, cizgi filmlərin uşaqların xəyal dünyasına təsir etdiyini söyləyir: "Uşaqlar, zorakılıq məzmunlu cizgi filmlərdəki qəhrəmanlarla eyniləşmək meylindədir. Xüsusilə film qəhrəmanlarının uğurlarını görüb bundan təsirlənirlər və onlar kimi olmaq arzusuna dşürlər. Bizim telekanallarda da, xarici telekanallarda da bu cür cizgi filmlərini verirlər.

Uşaqların alt şüurlarına zərərli informasiyalar yerləşir və bunun fəsadları ağır olur. Bu cür filmləri elə bəsit təqdim edirlər ki, elə bil bu normal bir haldır. Valideynlər diqqətli olsun, zorakılıq və qorxu məzmunlu filmlər izləyən uşaqlar gələcəyin potensial zorakılıq tətbiq edənləri ola bilər".

Bütün bu mənfi təsirləri azaltmaq üçün valideynlər olduqca diqqətli olmağa məcburdurlar. Psixoloq məsləhət görür ki, bu işə uşaqlarının izlədikləri televiziya və cizgi film saatlarını nəzarətdə saxlamaqla başlamaq olar. Mümkün olduğu qədər onlarla birlikdə siz də filmi izləyin və doğru anlaması üçün şərh edin. Heç bir halda uşağa şiddət, qorxu, hirs aşılayan cizgi filmi izlətməyin. Televizor və cizgi filmlərin yeganə, ya da əsas hobbi olaraq uşağınızın həyatında yer tutmasına manea törədin.

***Lalə Mehralı***



# Rusiya: İranla yaxınlaşmaq təhlükəlidir

***İyulun 10-da Moskvada keçirilən Rusiya ilə Körfəz Ərəb Dövlətləri üzrə Əməkdaşlıq Şurası ölkələri arasında strateji dialoqun nazirlər toplantısı Rusiya diplomatiyasında bir sıra problemləri üzə çıxarıb. Yekun bəyanatda iclas iştirakçılarının Hörmüz boğazındakı üç strateji əhəmiyyətli adalara edilən iddialarla bağlı Birləşmiş Ərəb Əmirliklərinin təşəbbüsünü dəstəkləmək qərarına gəlməsi, o cümlədən Tehranın son vaxtlar Əbu-Dabinin haqq və hüquqlarına meydan oxuması qeyd edilib. Bundan sonra Rusiyanın İrandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb. Səfir Rusiya və Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası ölkələrinin xarici işlər nazirləri arasında İranın üç adası – Əbumusa, Böyük və Kiçik Tunbla bağlı strateji danışıqların altıncı raundunun yekun bəyanatında yer alan məzmundan sonra vəziyyət gərginləşib.***







Görüşdə İran XİN Körfəz İdarəsinin müdiri Əlirza Enayati Rusiya səfirilə keçirdiyi görüşdə adaların İrana aid olduğunu vurğulayıb. Ə.Enayati Rusiyanın İranın ərazi bütövlüyünə hörmət etməli olduğunu bildirib. Bundan sonra İran siyasətçiləri Moskva ilə ultimatum dilində danışmağa başlayıblar. İran tərəfi hesab edir ki, bu addım Moskvanın Əmirliyin yürütdüyü siyasətə boyun əyməsidir.

Keçmişdə İran Xarici İşlər Nazirliyinin Avropa Departamentinə rəhbərlik etmiş İslam Respublikasının Məqsəd Şurasının üzvü Məhəmməd Sədri çıxışında bəyan edib ki, Tehran Moskvanı üzr istəməyə və mövqeyini dəyişməyə məcbur etməlidir, əks halda münasibətlərə yenidən baxmaq lazımdır. Böyük Ayətullah yanında məşvərət orqanının nümayəndəsi təəssüflə bildirib ki, İran Rusiya Ukraynada xüsusi əməliyyatı başlayandan bəri dərinləşən təcrid səbəbindən böyük itkilər verib.

İyulun 14-də Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova görüşlə bağlı qəzet və agentliklərin saytlarında dərc olunan materialın məzmunu ilə bağlı bir sıra şikayətlərini çatdırıb. Qeyd edib ki, redaktorlar Lavrovun "ərəb monarxları" ifadəsini təhrif ediblər. Bu, beynəlxalq terminologiyaya da uyğun gəlmir. Zaxarova şefi, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun nitq praktikasında media nümayəndələrinin əhəmiyyət vermədiyi məqamları diqqətə çatdırıb. Bildirib ki, Lavrov yeri gələndə rahatlıqla "ərəb monarxiyaları" ifadəsini işlədir. Nümunə kimi, onun 31 mart 2021-ci ildə Valday Klubunun Yaxın Şərq üzrə xüsusi sessiyasındakı çıxışında dediklərini xatırlamaq kifayətdir.

Halbuki, Rusiya diplomatik xidməti xüsusilə Fars körfəzinə gəldikdə, öz məzmunu və informasiya fəaliyyətinin keyfiyyətinə diqqət yetirməlidir. Çox səhlənkarlıq var...

2021-ci ildə Rusiyanın Tehrandakı o vaxtkı səfiri Levan Caqaryan britaniyalı həmkarı Saymon Şerkliflə fotosunun dərcinə görə İran Xarici İşlər Nazirliyinə çağırılmışdı. 1943-cü ildə Tehran konfransının keçirildiyi yerdə çəkilib və hətta bu foto SSRİ, ABŞ və İngiltərə liderlərinin tarixi mənzərəsini kompozisiya baxımından təkrarlayır. Bu, İran ictimaiyyətinin 1941-ci ildə Müttəfiq qoşunlarının ölkə ərazisini işğal etdiyi Sovet-İngiltərə əməliyyatı ilə güclü əlaqə yaratmasına səbəb olub.

2021-ci ildə eyni dərəcədə maraqlı bir qalmaqal da baş verib. Tehran bu tvitlə bağlı Rusiya Xarici İşlər Nazirliyinə etiraz notası göndərib. Xüsusilə, buna səbəb Rusiya diplomatik departamentinin ərəbdilli hesabında farsca deyil, "Ərəb körfəzi" ifadəsinin görünməsi olub. Rusiya Xarici İşlər Nazirliyinin ərəbdilli hesabındakı son yazılara nəzər salmaq kifayətdir ki, bunun məhz belə olduğunu biləsən. Sözlərin diqqətli seçilməsi, əlbəttə ki, İranın bu yaxınlarda çevrildiyi tənqidi xarici tərəfdaşla emosional etimadın qurulmasına kömək edərsə xüsusilə dəyərlidir.

Bu arada belə bir fikir yayılıb ki, Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin (DİP) yüksək keyfiyyətli və düzgün tərcüməyə diqqət yetirmək üçün kifayət qədər vaxtı yoxdur. DİP sanki jurnalistlərə işləməyi öyrədir. Guya Xarici İşlər Nazirliyinin adamları necə səmərəli işləməyi jurnalistlərdən yaxşı bilirlər. Bu keyfiyyətin sübutu təqdim edilməyincə, Zaxarovaya inanmaq çətindir.

Bu arada Pentaqon "davam edən təhdidlər" fonunda Yaxın Şərq regionunda hərbi mövcudluğu gücləndirmək niyyətini açıqlayıb. Departamentin rəhbəri Lloyd Austin F-35 və F-16 qırıcıları olan USS Thomas Hubner təyyarədaşıyan gəmisinin Hörmüz boğazına göndərilməsini əmr edib. Əlavə qüvvələrin yerləşdirilməsinə münasibət bildirən Vaşinqton ilk növbədə İrandan hərbi çağırışların mövcudluğunu qeyd edib. Bununla belə, Qərb nəşrlərinin Pentaqondakı mənbələri açıq şəkildə bildirir ki, Suriya arenası da hərbçilərin ciddi diqqətindədir, burada ABŞ Silahlı Qüvvələri Rusiya aviasiyası ilə toqquşmalardan qorxur.

Yeni təşəbbüsləri Pentaqonun mətbuat katibinin müavini Sabrina Sinq açıqlayıb. O, Hörmüz boğazı yaxınlığında hərbi mövcudluğun artırılmasını "ABŞ-ın maraqlarını və regionda naviqasiya azadlığını qorumaq" zərurəti ilə izah edib. Sinq bu kontekstdə xarici ticarət gəmilərinin qaçırılması ilə bağlı təkrarlanan hadisələrə diqqət çəkib. Amerika tərəfi bu cür epizodlarda həmişə İran Hərbi Dəniz Qüvvələrini günahlandırır: ABŞ Mərkəzi Komandanlığı İslam Respublikasının 2021-ci ildən bəri 20 kommersiya uçuşuna qarşı güc tətbiq etdiyi iddia edilən məlumatlara istinad edir. İran tərəfi özü belə iddiaları rədd edir.

Pentaqondakı "Air & Space Forces Magazine"-nin yüksək səviyyəli mənbələri əlavə qüvvələr göndərmək qərarını şərh edərkən, İranın ABŞ müttəfiqlərinin sərhədlərini pozacağı təqdirdə F-35 təyyarələrinin həqiqətən də Fars körfəzi üzərindəki səmalarda istifadə oluna biləcəyini etiraf ediblər. Eyni zamanda jurnalın həmsöhbətləri Pentaqonun kürd yarımhərbi birləşmələrinə arxalanaraq məhdud hərbi kontingent saxladığı Suriyada qırıcı təyyarələrdən istifadə etmək üçün əsaslarının olduğunu qeyd ediblər. Keçən ildən bəri orada yerləşdirilən ABŞ hərbçiləri Rusiya Aerokosmik Qüvvələrinin "təhlükəsiz uçuşları" ilə məşğul olmaq məcburiyyətində olduqlarından getdikcə daha çox şikayət edirlər. Rusiya Müdafiə Nazirliyi də Pentaqona qarşı eyni iddialarla çıxış edir.

Amerika mənbələri iyulun 18-də baş vermiş yeni insidentlə bağlı Politico-ya məlumat veriblər. Onlar bildiriblər ki, bu həftəsonu Suriyada Rusiyaya məxsus Su-35 "ABŞ-ın müşahidə təyyarəsinə çox yaxın uçaraq onu təlatümlü həyəcandan keçirməyə məcbur edib" və "ekipajın təyyarəni təhlükəsiz idarə etməsinə mane olub". Rəsmilər bu epizodu "qəza və ya insan itkisi ilə nəticələnə biləcək təhlükəli davranışın yeni səviyyəsi" kimi təsvir ediblər.

Keçən həftənin sonlarında adı açıqlanmayan ABŞ hərbi rəsmisi Vaşinqtonun Rusiyanın Suriyadakı həyəcanlı hava manevrlərinə cavab vermənin mümkün yollarını nəzərdən keçirdiyini söyləyib. Onun sözlərinə görə, hətta "hərbi variantlar" da nəzərdən keçirilir. Bu bəyanatlardan göründüyü kimi, Moskva Tehranla razılaşma əsasında Amerikanın əməliyyat məkanını daraltmaq niyyətində olduğundan şübhələnir. İsrail Hayom həmsöhbətlərinin sözləri sürpriz oldu, çünki bundan bir qədər əvvəl Pentaqonun Birgə Qərargahının Əməliyyatlar üzrə direktoru, general-leytenant Duqlas Sims əmin etdi ki, Suriyada sərt tədbirlərə əl atmağa imkan verəcək eskalasiya səviyyəsi hələ yoxdur.

"Al-Monitor"un qeyd etdiyi kimi, bir tərəfdən ABŞ prezidenti Cozef Baydenin administrasiyası Kapitoli təpəsində onu tənqid edənləri sakitləşdirə biləcək addımlar atır. Konqres üzvlərinin bəziləri ABŞ sanksiyalarına məruz qalan İran neftinin kölgə ixracını dayandıracaq tədbirlər görməyə çalışırlar. Digər tərəfdən, bir sıra hərbi rəsmilər, "Al-Monitor"un məlumatına görə, Hörmüz boğazında mövcudluğun qısamüddətli artırılmasını ABŞ-ın regional müttəfiqlərinin qorxularına cavab olaraq görür. Ərəb dövlətlərində hələ də narahatlıq var ki, Avropa və Asiyada vəziyyət Ağ Ev üçün Yaxın Şərq və Şimali Afrikadakı vəziyyətdən daha prioritet məsələyə çevrilib.

Regional oyunçular tez-tez narazılıqlarını açıq şəkildə göstərirlər. Mayın sonunda Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Qırmızı dəniz və Fars körfəzinə cavabdeh olan ABŞ-ın rəhbərlik etdiyi Yaxın Şərq Təhlükəsizlik Koalisiyasından çıxdığını elan edib. "BƏƏ regional təhlükəsizlik və sabitliyin ümumi məqsədlərinə nail olmaq üçün bir vasitə kimi dinc dialoq və diplomatiyaya sadiqdir", - Əmirliyin Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Bu sənəddən belə nəticə çıxır ki, Vaşinqtonun himayəsi altında fəaliyyət göstərən dəniz qüvvələrinin tərkibindən çıxmaq təşəbbüsü "təhlükəsizlik sahəsində əməkdaşlığın səmərəliliyinin uzun müddət qiymətləndirilməsindən" sonra qəbul edilib.

Strategiya və Texnologiyaların Təhlili Mərkəzinin (CAST) baş elmi işçisi Yuri Lyamin söhbətində Pentaqonun açıqlamalarında F-16 və F-35 qırıcılarının dəqiq sayını göstərmədiyinə diqqət çəkib. "Ancaq yalnız bir əlavə esminesin göndərilməsinə əsasən, biz Fars körfəzindəki mövcud Amerika qüvvələrinin nəzərəçarpacaq, lakin hələ də mülayim artımından danışırıq", deyə ekspert bildirib.

Göründüyü kimi, Fars körfəzində işlər İranın heç də tərtibinə uyğun şəkildə getmir. Moskvada aparılan danışıqlarda adalar məsələsinə toxunmaq Tehranın sərt reaksiya verməsinə səbəb olub. İranın qonşularından ərazi iddialarına Rusiyanın dəstək verməməsi molla rejimini qızdırıb. Məhz bu yanaşma Rusiyada Tehranla münasibətlərə yenidən baxmağı aktuallaşdırıb. İrana bu qədər yaxın olmağın nə qədər ağır fəsadları ola biləcəyini Moskva indi anlayıb.

**V.VƏLİYEV**

RAKURS

# Qeyri–neft sektorunun yüksək inkişaf tempi ixrac imkanlarını genişləndirir



***Azərbaycanda ötən illəq ərzində qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da son illər qeyri-neft sektoru ümumi iqtisadi artımda önə çıxmaqdadır. Rəsmi statistika və makroiqtisadi göstəricilərə əsasən son 8 ildə ölkədə qeyri-neft sektorunda artım 2.2 dəfədən çox olub. Neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsinə hesablanmış xərclənmə strategiyası özünü doğruldub. Keçid dövrünü yaşamış hər bir ölkə kimi Azərbaycan da güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanıb, ancaq bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilib.***

Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım tendensiyası hökm sürməkdədir. Bu tendensiyanın göstəricilərindən biri kimi, son 8 ildə ölkədə 1 milyondan yuxarı iş yeri yaradılıb və bunun böyük hissəsi məhz qeyri-neft sektorunda baş verib.

Azərbaycanın dünya iqtisadiyyatlarının rəqabətlik reytinqində öz mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırmasına imkan vermişdir. 2012–2013-cü illər üçün dünya iqtisadiyyatlarının rəqabətlik reytinqində respublikamız dünyanın 50 ən rəqabətli iqtisadiyyatları qrupuna daxil olmuş və 144 ölkə arasında 46–cı olmuş və 2011–ci illə müqayisədə öz mövqeyini 9 pillə yaxşılaşdırmışdır. Makroiqtisadi sabitlik göstəricisinə görə Azərbaycan 18–ci yerdə olmaqla ilk iyirmilikdə qərarlaşmışdır. 2011–ci illə müqayisədə ən böyük artım (19 pillə) "Əmtəə bazarının səmərəliliyi" göstəricisi üzrə əldə edilmişdir.Azərbaycan "İnnovasiya potensialı" göstəricisi üzrə 14 pillə, "Texnoloji səviyyə" göstəricisi üzrə 13 pillə, institutların keyfiyyəti göstəricisi üzrə isə 5 pillə irəliləmişdir. Rəqabətlilik indeksinə görə Azərbaycan artıq 4 ildir ki, MDB məkanında liderdir.

Hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, qeyri–neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdən ibarətdir."Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixrac yönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri–neft ixracının artımına səbəb olacaqdır. Qeyri–neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır. Təkcə 2012-ci ildə ölkədə 60-dan çox sənaye müəssisəsi istifadəyə verilib. Gələcəkdə sənayeləşmə siyasəti çərçivəsində zəruri işlər, o cümlədən yeni neft-qaz və neft-kimya kompleksi, gəmiqayırma, gübrə zavodları və polad istehsalı kompleksinin yaradılması davam etdiriləcək. Həmçinin, Balaxanı Sənaye, Sumqayıt Kimya Sənaye və Yüksək Texnologiyalar parklarının təşkili istiqamətində ardıcıl işlər aparılır. Bundan başqa, Mingəçevirin sənaye potensialı və investisiya qoyuluşu imkanları araşdırılır. Qeyd edək ki, qeyri-neft məhsullarının ixracı isə ötən ilin yanvar-iyun ayları ilə müqayisədə 13,5 faiz artıb. İxrac məhsulları arasında xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, idxal məhsulları arasında qida məhsulları, qara metallar və onlardan hazırlanan məmulatlar, maşın, mexanizm, elektrik aparatları, avadanlığı, nəqliyyat vasitələri və onların hissələri üstünlük təşkil edib. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir.



Beynəlxalq maliyyə institutları bu sahələr arasında kənd təsərrüfatı və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 44 faizə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir. Hazırda Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif bölgələrə ixrac edilir. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün ölkə prezidentinin sərəncamları və təsdiq etdiyi inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollarlıq vəsait xərclənib. Bu xərcləmələr çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub.







Beləliklə, Azərbaycan özünün zəngin neft-qaz ehtiyatlarından uzunmüddətli və davamlı iqtisadi inkişafa nail olmaq üçün uğurla faydalanmaqdadır. "Qara qızıl"ın qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsi, neft-qaz gəlirlərindən istifadə etməklə gələcəkdə bu gəlirlərdən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyat qurulması strategiyası öz nəticələrini verməkdədir.

***Türkan Ağaverdiyeva***




Azərbaycan
Respublikasının
Medianın İnkişafı
Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.***

# "Ağıllı kənd" konsepsiyası nə üçündür?

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi "Ağıllı kənd" layihəsi olduqca maraq doğuran bir proyektdir. Bu layihəyə həm yerli, həm də xarici maraq böyükdür. 30 ilə yaxın sahibsiz, təmassız qalan torpaqlarımızda bu proyekti yaratmaq, canlandırmaq bir çoxlarına yuxu kimi gəlirdi. Amma işğaldan azad edilməsindən çox az müddət sonra bu yuxu reallığa çevrildi.***





Ağıllı kənd layihəsi 2016-cı ildə Avropa İttifaqının ucqar rayonlarda kəndlərin inkişafı ilə bağlı bəyannaməsi əsasında yaradılıb və Azərbaycanın ilk ağıllı kəndidir. Bəyannamənin məqsədləri elektron xidmətlərdən istifadənin artırılması, dairəvi iqtisadiyyatın yaradılması və davamlı kənd inkişafının təmin edilməsidir.

Dünyada belə kəndlərin yaradılmasının əsas məqsədlərindən biri də urbanizasiyanın qarşısını almaq, kəndlərdə yaşayış nisbətini yüksəltməkdir. Ağıllı kəndlər layihəsi çərçivəsində qurulan belə kəndlərdə şərait yaradılıb. Ağıllı kəndlərdə şəhərlərdə göstərilən bütün zəruri xidmətlər göstərilir. Üstəlik, "Ağıllı kənd" konsepsiyası həmçinin kənd yerlərində yaşayan insanlar üçün bütün müasir imkanlar və insanlara öz yaşdıqları ərazidə daha çox qazanc əldəetmə imkanı verir.

İşğaldan azad edildikdən sonra Qarabağdakı ürəkağrıdan mənzərə yeni görüntü ilə əvəzlənib. İşğalı dövründə bütün infrastrukturu dağıdılan, yolları, binaları məhv edilən rayon və şəhərlərimiz, qənd və qəsəbələrimiz yenidən dirçəldilir. Ölkə rəhbərinin göstərişi ilə inşa edilən Ağalı - "Ağıllı Kənd" layihəsi, öz növbəsində, bir ilkdir və ölkənin digər ərazilərində həyata keçirilməsi nəzərdə tutulan silsilə yeniliklər üçün bir növ pilot layihə funksiyasını daşıyır.

Ağalı kəndindəki evlərdə istilik sistemləri ağıllı texnologiyalar əsasında yaradılıb. Bu kəndlərdə müasir tipli məktəblərin, uşaq bağçalarının, poliklinikaların və elektron hökumət mərkəzlərinin tikintisi həyata keçirilib, turizm infrastrukturu formalaşdırılıb. Bütün yaşayış binaları, sosial obyektlər, inzibati binalar və ictimai iaşə obyektləri, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi, birmənalı olaraq, alternativ enerji mənbələri ilə təmin edilib.

Ağalının yeni simasını hazırlayan bu layihə təkcə ağıllı binaların tikintisi ilə məhdudlaşmır. Kəndin ümumi infrastrukturu normal, sıradan bir kəndin infrastrukturundan dəfələrlə fərqlidir. Tikintisi cəmi səkkiz ay davam edən bu kənd, hətta Avropa Ağıllı Kəndlər Forumunun həmtəsisçisi və baş icraçı direktoru Alessandro Da Roldu da təəccübləndirib. Layihənin həyata keçirilməsi ilə bağlı təşkil olunan konfransda iştirak edərkən Avropa Parlamentinin üzvləri gördüklərindən və bu layihənin istiqamətindən çox təsirləniblər.

Kəndin ümumi konsepsiyasında dörd əsas sahə var: intellektual infrastruktur və xidmətlər; iş imkanları; rasional idarəetmə; yaşıllıq və alternativ enerji. Kənddə e-sağlamlığı, elektron təhsili dəstəkləyən və ağıllı idarəetmə məqsədlərini dəstəkləyən yüksək sürətli internet bağlantısı var. Ağalıya köçən ailələrin bir narahatlığı da övladlarının online imkanlardan və online təhsildən uzaq düşə bilmə ehtimalı idi ki, lazım gələrsə, uzaqdan təmin edilən ən yaxşı təhsil resurslarına çıxış əldə edəcəklər.

Hökumət məşğulluq imkanlarının yaradılması üçün özəl sektor subyektləri ilə qarşılıqlı işlər görür. Ağalıdakı perspektivli müəssisələrin sayı çoxdur. Onlardan biri də camış südü istehsalı və emalı ilə məşğul olan fermadır. Bu layihədə yerli sakinlərə 60-a yaxın iş yeri təqdim edilib. Eyni zamanda, beton istehsalı müəssisəsində, xurma sahəsində iş yerləri var. Burada otel və turizm imkanları, eləcə də dövlət sektorunda iş imkanları da mövcuddur. Ağıllı kənd layihəsi yalnız kəndin adında deyil, bütün istiqamətlərdə özünü göstərir. Məsələn, kənd təsərrüfatında çirkab sulardan istifadə edən ən müasir ekoloji monitorinq sistemləri və suvarma sistemlərindən istifadə ediləcək.





Bütün binalar 80% enerji səmərəliliyi ilə ən yüksək ekoloji standartlara uyğun dizayn edilmiş alternativ enerji ilə təmin edilib. Kəndin enerji ehtiyaclarını ödəmək üçün günəş, külək kimi alternativ enerji mənbələrindən istifadə edilir, kəndin tullantı nisbəti demək olar ki, sıfıra bərabərdir.

Ümumiyyətlə, "ağıllı kənd" layihəsi bəşəriyyətin xilası kimi xarakterizə edilir. Bu kəndlərin sayı artıqca şəhərlərdəki xaos aradan qalxacaq, urbanizasiya problemi həllini tapacaq, iş yerlərinin sayı artacaq, regionların iqtisadi gücü və inkişafı formalaşacaq.

***Lalə Mehralı***

SON SƏHİFƏ

# SƏS

20 iyul
2023-cü il

# Restoranlarda "servis haqqı" qanunauyğundur?



***"Əlavə xidmət haqqının tələb edilməsi istehlakçı hüquqlarının pozulmasıdır. Müştəriyə təqdim olunan bütün məhsulların qiyməti artıqlaması ilə hesablanır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib.***

## MÜNASİBƏT BİLDİRİLDİ



Onun sözlərinə görə, əslində məntiqlə baxsaq, restoran özü xidmət sahəsidir: "Buranın da öz yazılmamış qanunları var. Əgər müştəriyə qabaqcadan qeyd olunursa ki, onlardan servis xidməti tələb olunacaq, bu halda müştərinin yemək yedikdən sonra servis haqqından imtina etməsi düzgün deyil. Səbəb odur ki, müştəriyə bu barədə məlumat verilib və təqdim olunan qəbzdə də bu barədə qeyd var. Müştərinin ödədiyi məbləğdən vergi ödənilir (qəbz Vergi Məcəlləsinə uyğun olmalıdır). Burada gizlin heç nə yoxdur. Yemək menyusunda da bu, qeyd edilməlidir. Servis xidmətləri bir çox ölkələrdə adətən 5-25 faiz civarında olur".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, bəzi ölkələrdə, ümumiyyətlə, servis xidməti məsələsi yoxdur: "Servis xidmətinə müştəriyə xidmət edən ofisiantın pulu da əlavə olunur. Yəni, müştərinin servisə görə ödədiyi faizin içində qabyuyanın pulu, ofisiantın pulu, süfrə aksesuarlarından istifadə pulu aid edilir. Yemək bura aid edilmir. Bu səbəbdən də menyuda servis ayrı, xörəklərin məbləği ayrı göstərilir. Bəzi hallarda isə ofisiantın pulu "çayevoy" qismində ayrı göstərilir. "Azərbaycan Respublikası İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunda restoran, servis xidməti, çay pulu ilə bağlı bir qeyd yoxdur.

Məsələn, ABŞ-də "çay pulu"nun verilməsi restoran tərəfindən verilən minimum əməkhaqqından əlavə dolanışıq üçün pul hesab olunur. Burada faiz yoxdur ki, mən bu ofisianta bu qədər çay pulu qoymalıyam. Müxtəlif məbləğlər qoyaraq çekdə onu qeyd edə bilərlər. Yaxşı xidmət göstərən ofisianta tələbat böyükdür. Hər kəs öz restoranında belə ofisiantları görmək istəyir. Onların çay pulları da



yüksək olur. Bizdə bununla bağlı hər hansı qanunvericilik yoxdur. Yalnız Vergi Məcəlləsi baxımından nə qədər vəsaiti büdcəyə köçürməlisən qeydi var. Qanunvericilikdə ABŞ-də olduğu kimi qaydalar müəyyən olunsa, yazılmamış daxili qaydaya ehtiyac duyulmaz".

*Ləman Sərraf*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Daha bir türk aktrisa boşandı



Türkiyə şou-biznesində daha bir boşanma hadisəsi yaşanıb. Bir zamanlar ən məşhur və baxımlı seriallardan sayılan "Akasya durağı" serialındakı "Dilək" obrazı ilə tanınan aktrisa Pelin Sönməz də boşanıb. Türkiyə mətbuatının yazdığına görə, aktrisa həyat yoldaşı Cem Candarla razılıq yolu ilə ayrılıb. Qeyd edək ki, cütlük 2018-ci ildə ailə həyatı qurmuşdu.

***Mətləb***

# Cənubi Avropa üçün tarixin ən isti həftəsi yaşanır



**Kəskin iqlim dəyişikliyi və şiddətli istilər nəticəsində Cənubi Avropa tarixinin ən isti həftəsini yaşayır. Anomal istilər Şimali Asiya və Şimali Amerikada da müşahidə olunur. Qərb mediasının yazdığına əsasən, dünən səhər İspaniyada termometrlər 30 dərəcədən yuxarı qalxıb, günorta saatlarında isə 40 dərəcəni keçib. İstilik dalğası günlərdir davam edir. Ölkənin bir sıra bölgələri ekstremal temperaturlar səbəbindən yüksək hazırlıq vəziyyətinə gətirilib.**

Anomal hava şəraitinin qismən El Nino iqlim fenomenindən qaynaqlandığı deyilir, mütəxəssislər hesab edirlər ki, əsas səbəb qlobal iqlim dəyişikliyi ilə əlaqəlidir.

## ELAN

**Şamaxı rayon Aqrar İslahat Komissiyasının 05.05.2001-ci il tarixli 05 saylı qərarına əsasən rayonun Qaladərəsikənd sakini Nuriyev Azər Ağaməhəmməd oğlunun adına verilmiş rayonun Qaladərəsi kəndində yerləşən torpaq sahəsinə dair JN-022A Kod 41010038 torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**